

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Həmrəyliyin 50 milyon nümunəsi




15

# SƏS

№ 231 (6914)

16 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycanın qlobal nüfuzunun növbəti təsdiqi!

PREZİDENT İLHAM ƏLİYEV: "Apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq"



2

# YAP İdarə Heyətinin genişləndirilmiş iclasında cənab İlham Əliyevin prezidentliyə namizədliyi irəli sürülüb



4

## İrəvana sancılan bayraq



12

## Dilənərək alınan və əyləncəyə xərclənən MİLYONLAR



7

## Naxçıvan qovurmasının sorağı ilə...



11

## "Regiondakı problemləri yalnız 3+3 formatında region ölkələri həll edə bilər"




14

## Bakı yenidən dünyanın mərkəzi olacaq



8

# Azərbaycanın qlobal nüfuzunun növbəti təsdiqi!

## PREZİDENT İLHAM ƏLİYEV: “Apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq”

**Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) evsahibliyi edəcək. 1995-ci ildən etibarən hər il keçirilən konfransda dünyanın iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişləri qiymətləndirilir. COP29-un gələn il Bakıda keçirilməsi Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzunun günbəgün artdığını sübut edir.**

Dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib. Müşavirədə çıxış edən Prezident İlham Əliyev bildirib ki, bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək: ”Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir”.



### ”COP29 BEYNƏLXALQ KONFRANSINI DA BİZ YÜKSƏK SƏVİYYƏDƏ KEÇİRƏCƏYİK VƏ BU, ÖLKƏMİZİN, XALQIMIZIN NÖVBƏTİ BÖYÜK UĞURU OLACAQ”



Prezident İlham Əliyev dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar keçirilən müşavirədə hazırlıq işlərinin aparıldığını deyib: ”Hesab edirəm ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik. Bizim vaxtımız o qədər də çox deyil, 11 aydan az vaxtımız var”.

Dövlətimizin başçısı deyib: ”Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək”.

”Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq”, - deyən dövlət başçısı bu gün Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı: ”Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi”.

### ”İKİ HƏFTƏ ƏRZİNDƏ BAKI DÜNYANIN MƏRKƏZİ OLACAQ”

Dövlətimizin başçısı keçirilən müşavirədə onu da vurğulayıb ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik.

Bu il Azərbaycanın Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirdiyini xatırladan dövlətimizin başçısı bildirib: ”Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilmişdir. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq”.

”Bəzi hallarda beynəlxalq aləm, beynəlxalq birlik anlayışı Qərbdə təhrif edilir. Beynəlxalq birlik 30-40 ölkə deyil. Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil”, - deyən Prezident İlham Əliyev onu da bildirib ki, biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır: ”Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir”.

### ”FRANSADA BƏZİ SİYASİ LİDERLƏR ERMƏNİLƏRDƏN DAHA ÇOX ERMƏNİ OLMAĞA ÇALIŞIRLAR”

”Antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir”. Bu fikri Prezident İlham Əliyev keçirilən müşavirədə deyib.

Bəzi Qərb ölkələrinin, ənənəvi olaraq da Fransanın bununla barışmaq fikrində olmadığını qeyd edən dövlətimizin başçısı bildirib: ”Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar”.

Azərbaycan Prezidenti onu da vurğulayıb ki, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı: ”Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı”.

COP29-un gələn il ölkəmizdə keçirilməsi barədə qərarın əhəmiyyətinə toxunan dövlətimizin başçısı vurğulayıb: ”Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi”.

Bir sözlə, Prezident İlham Əliyevin bu təşəbbüsü də əvvəlkilər kimi ölkəmizin qüdrətini bütün dünyaya nümayiş etdirdi. Və bu gün Azərbaycan, dövlət başçımızın söylədiyi kimi: ”Apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq”. Və bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək.

***R.KAMALQIZI***

# “Ölkələrimiz arasında ikitərəfli dostluq münasibətləri uğurla inkişaf edir”

*Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin investisiya nazirini qəbul edib*

**Prezident İlham Əliyev dünən Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydini qəbul edib. Dövlətimizin başçısı BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28-in Dubayda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Məhəmməd Həssən Əl Suveydi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.**





Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı bu yaxınlarda Birləşmiş Ərəb Əmirliklərinə səfərini və səfər çərçivəsində bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşünü məmnunluqla xatırladı.

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli dostluq münasibətlərinin bir çox sahədə uğurla inkişaf etdiyi bildirildi, müxtəlif səviyyələrdə təmasların əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət etdiyi qeyd olundu.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il Azərbaycanda keçirilməsi barədə qərar beynəlxalq aləmdə ölkəmizə göstərilən böyük etimadın və hörmətin nümunəsi kimi dəyərləndirildi.

Söhbət zamanı bu gün imzalanacaq sənədlərin önəmi qeyd edilərək bunun iqtisadi sahədə əməkdaşlığın və ümumilikdə əlaqələrimizin uğurlu inkişafının yaxşı göstəricisi olduğu bildirildi. Sonra sənədlərin imzalanması mərasimi oldu.

Azərbaycan İnvestisiya Holdinqi və Əbu-Dabi İnkişaf Holdinq Şirkəti arasında Birgə sərmayə çərçivə razılaşması imzalandı. Razılaşmanı Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydi imzaladılar.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında data mərkəzləri layihələrində investisiya əməkdaşlığı haqqında Anlaşma Memorandumu imzalandı. Memorandumu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydi imzaladılar.



# YAP İdarə Heyətinin genişləndirilmiş iclasında cənab İlham Əliyevin prezidentliyə namizədliyi irəli sürülüb

**Dekabrın 15-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin genişləndirilmiş iclası keçirilib.**

İclasda əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Dövlət Himni səsləndirilib.

İclası giriş sözü ilə açan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 2023-cü ilin Azərbaycan xalqının və dövlətinin tarixinə çox əlamətdar bir il kimi düşdüyünü bildirib. Onun sözlərinə görə, bu il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar ölkəmizdə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilib. Eyni zamanda, dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2024-cü il fevralın 7-nə Azərbaycan Respublikası Prezidenti seçkiləri təyin olunub.

YAP Sədrinin müavini qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il-



uğurlarla zəngindir. Azərbaycanın iqtisadiyyatının qısa bir zaman ərzində 4 dəfə artması bütün dünyada ən uğurlu gənc dövlət statusu qazanmasının əsasını təşkil edir. Eyni sözləri Azərbaycanda sosial inkişafla əlaqədar bildirmək mümkündür. Sosial inkişaf Azərbaycanın simasının köklü surətdə dəyişməsi və modernləşməsi üçün əsas olub",- deyən Əli Əhmədov əlavə edib ki, Azərbaycanın beynəlxalq aləmdə hörmətinin və nüfuzunun artması da Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasətin uğurlu nəticələrindən biridir. Bunun bariz ifadəsi kimi bir neçə gün bundan əvvəl qlobal gündəliyin aktual problemlərindən olan COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi haqqında qərarın qəbul edilməsini nümunə göstərmək olar.

Əli Əhmədov söyləyib ki, Prezident İlham Əliyevin 20 illik fəaliyyətinin möhtəşəm nəticələrinin zirvəsində 2020-ci ildə Azərbayca-





də möhtəşəm nailiyyətlər qazanılıb, dövlətimizin və xalqımızın qarşısında ən ümdə vəzifə olan Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin edilib: "Ulu Öndərimizin dahiyanə söylədiyi bir fikir var: "Vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq". Bu gün məhz Ulu Öndər Heydər Əliyevin yaratdığı güclü təməllər üzərində Prezident İlham Əliyev müasir, suveren, bütöv və yeni Azərbaycanı qurub. Düşünürəm ki, bu Zəfər yürüşünün davamı qarşıdan gələn seçkilərdən əhəmiyyətli dərəcədə asılıdır".

Daha sonra Tahir Budaqov iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə aşağıdakı məsələlər daxil edilib:

- 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədinin irəli sürülməsi;
- 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planının təsdiq edilməsi;
- Azərbaycan Respublikası Prezidentliyinə namizəd irəli sürmüş Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin təyin edilməsi;
- Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının yaradılması və onun tərkibinin təsdiq edilməsi.

Gündəlik yekdilliklə təsdiq edildikdən sonra "2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədinin irəli sürülməsi" məsələsi müzakirəyə çıxarılıb. YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, seçkilər zamanı namizədlərin irəli sürülməsi məsələsi Seçki Məcəlləsinin 54-cü maddəsi ilə tənzimlənir. Həmin Məcəllənin 54.1 maddəsində qeyd edilir ki, namizədin irəli sürülməsi haqqında qərarı siyasi partiya öz Nizamnaməsinə uyğun olaraq qəbul edir: "Nəzərinizə çatdırım ki, Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də keçirilmiş VII Qurultayında partiyamızın yeni Nizamnaməsi qəbul edilib. Yeni Nizamnaməyə əsasən Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada seçkilərdə namizədlərin irəli sürülməsi İdarə Heyətinin səlahiyyətinə aid edilib".

Sonra çıxış edən YAP Sədrinin müavini, Baş nazirin müavini Əli Əhmədov bildirib ki, ölkəmizdə növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı qərarın qəbul olunmasını şərtləndirən obyektiv reallıqlar mövcuddur. Onun sözlərinə görə, 30 il ərzində torpaqlarımızın işğal altında olması, Qarabağ münaqişəsinin mövcudluğu Azərbaycanın reallığı idi: "Həmin dövrdə bütün seçkilərdə prezidentliyə namizədliyi irəli sürülən şəxslərdən xalqın başlıca istəyi Qarabağ münaqişəsinin ədalətli surətdə həll olunması və Azərbaycanın işğal altında olan torpaqlarının azad olunmasından ibarət idi. Vətən müharibəsi nəticəsində Azərbaycanın torpaqlarının azad olunması və ərazi bütövlüyümüzün təmin edilməsi, xüsusilə də cari ilin sentyabr ayında keçirilmiş antiterror tədbirlər nəticəsində problemin bütövlükdə ədalətli şəkildə həll olunması Azərbaycanın gündəliyini də köklü surətdə dəyişdirdi. İndi Azərbaycanın gündəliyi münaqişə və müharibə ilə deyil, sülh və əməkdaşlıq məsələləri ilə təyin olunur. Müvafiq olaraq Azərbaycan Prezidentinə xalq tərəfindən verilən mandatın da mahiyyəti ciddi şəkildə dəyişmiş olur. Sülh və əməkdaşlıq məsələlərinin həll olunması, o cümlədən işğaldan azad olunmuş Azərbaycan torpaqlarının bərpa edilməsi və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasının təmin edilməsi vəzifələri müəyyənləşdirilib. Beləliklə, Azərbaycanda yeni reallıq meydana gəlib və bu, ölkəmizdə növbədənkənar prezident seçkilərinin keçirilməsinin əsaslarını müəyyən edib. Hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşı, bütövlükdə Azərbaycan xalqı, o cümlədən dünya ictimaiyyəti ölkəmizdə növbədənkənar prezident seçkilərinin təyin olunması ilə əlaqədar yeni reallıqlardan irəli gələn qaçılmaz zərurət olduğunu aydın şəkildə dərk edir və bu cür də qiymətləndirir. Prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədinin irəli sürülməsi məsələsinə gəldikdə isə, mən ilk olaraq böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün partiyanın İdarə Heyətinin genişləndirilmiş iclasında Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında yekdil qərar qəbul ediləcək. Bu gün qəbul edəcəyimiz qərar təkcə Yeni Azərbaycan Partiyasının növbədənkənar prezident seçkilərində namizədinin irəli sürülməsi yox, bütün Azərbaycan xalqının iradəsinin ifadəsi olacaq. Bu mənada hesab edirəm ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyəti tarixi qərar qəbul etmək kimi şərəfli bir missiyanı uğurla həyata keçirəcək".

YAP Sədrinin müavini söyləyib ki, növbədənkənar prezident seçkilərində cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsi onun əzəmətli xidmətlərindən irəli gələn mənəvi və halal haqqıdır: "Eyni zamanda, hesab edirəm ki, Prezident İlham Əliyevin namizədliyinin irəli sürülməsi 2020-ci ilin möhtəşəm Qələbəsindən sonra bütün Azərbaycan xalqının ona dərin hörmət, etibar və etimadının ən yüksək təzahürü kimi dərk edilməli və qiymətləndirilməlidir. Ümummilli Liderimiz Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır. Prezident İlham Əliyev Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövlətinin daha da güclənməsinin, qüdrətlənməsinin, onun bütün dünyada şöhrətinin artmasının və qalib Azərbaycanın müəllifidir. Bu mənada, Prezidentin 20 illik fəaliyyətinin hər ayı, hər ili Azərbaycanın tarixində dərin iz buraxmış nailiyyətlər, qələbələr, nın qazandığı tarixi Zəfər dayanır. Bütün bunların hamısı Azərbaycanın xalqının qəlbində cənab İlham Əliyevlə əlaqədar bir vəfa borcu hissi formalaşdırıb. "Prezident İlham Əliyevin namizədliyinin irəli sürülməsi Azərbaycan vətəndaşlarının ona bəslədiyi böyük ümidlərlə əlaqədardır. Prezident İlham Əliyev 20 illik fəaliyyəti nəticəsində Azərbaycan xalqının istək və arzularına uyğun şəkildə ölkəyə rəhbərlik etmək imkanlarına malik olan tarixi şəxsiyyət olduğunu sübut edib. Bu hisslər və duyğular əsasında cənab İlham Əliyevin növbəti illər ərzində Azərbaycana rəhbərliyindən vətəndaşlarımız yenə də böyük gözləntilər ifadə edirlər. Bu gözləntilərin ifadə olunması çox ciddi səbəblərə söykənir. Bu mənada hesab edirəm ki, Azərbaycan vətəndaşları qarşıdan gələn növbədənkənar prezident seçkilərinə cənab İlham Əliyevə qəlblərində bəslədikləri vəfa borcunun ifadə olunması üçün gözəl bir fürsət kimi baxırlar. Mən böyük şərəf və məmnuniyyətlə növbədənkənar prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin namizədliyini irəli sürür, onun namizədliyinin irəli sürülməsinin ölkəmiz və xalqımız üçün uğurlu, faydalı olduğuna əminlik ifadə edirəm".

Müzakirələr zamanı çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov bildirib ki, bu gün Yeni Azərbaycan Partiyası öz siyasi tərcümeyihalının ən şərəfli günlərini yaşamaqdadır: "Çünki biz Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyi yeni reallıqda Yeni Azərbaycan Partiyası Sədrinin prezidentliyə namizədliyini irəli sürürük. Bu, təkcə Yeni Azərbaycan Partiyasının siyasi tərcümeyi-halında mühüm bir səhifə deyil, bütövlükdə Azərbaycan xalqının və dövlətçiliyinin mühüm bir səhifəsidir. Ulu Öndər Heydər Əliyev çıxışlarının birində 1923-cü ildə yaradılmış "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin Azərbaycan üçün böyük təhdid olduğunu bildirmişdi.

*Ardı Səh. 5*

# YAP İdarə Heyətinin genişləndirilmiş iclasında cənab İlham Əliyevin prezidentliyə namizədliyi irəli sürülüb



Əvvəli Səh. 4

Yüz ildən sonra Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Prezidenti İlham Əliyev bu problemi tarixin arxivinə gömdü. Ona görə də hər birimiz üçün böyük qürur və şərəfdir ki, Azərbaycan dövlətçiliyi tarixinə, hətta Türk dövlətləri tarixinə öz imzasını atmış, möhür vurmuş bir siyasi liderin namizədliyini irəli sürəcəyik. Düşünürəm ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin qəbul edəcəyi qərar ümumxalq partiyası kimi bütövlükdə Azərbaycan xalqının iradəsinin təcəssümüdür".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu çıxışında bildirib ki, 2023-cü il Azərbaycan xalqının tarixi yaddaşında daim qalacaq çox mühüm hadisələrlə zəngindir: "Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq bütün ərazilərimizdə suverenliyin təmin olunduğu bir şəraitdə Azərbaycan vətəndaşları öz seçki hüquqlarından istifadə edəcəklər. Azərbaycan Prezidenti İlham Əliyevin xalqımıza vermiş olduğu çoxsaylı töhfələrdən biri də məhz bundan ibarətdir".

Onun sözlərinə görə, cənab İlham Əliyevin təkcə Azərbaycan dövləti və xalqı qarşısında deyil, bütün dünya qarşısında çox böyük xidmətləri var. Buna görə də yenə də heç bir mübaliğəyə yol vermədən qeyd edə bilərik ki, cənab İlham Əliyev təkcə Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə deyil, bütün dünyaya gərəkdir. Çünki onun təşəbbüsləri, həqiqətən də, qlobal təhlükəsizliyin bir çox istiqamətlərdə təmin olunmasında təsirli rol oynayıb. Bu kontekstdə bir məqamı ayrıca vurğulamaq lazımdır ki, BMT-nin mövcudluğu tarixində dördüncü dəfə Prezident İlham Əliyevin təşəbbüsü ilə Baş Assembleyanın xüsusi toplantısı keçirilib ki, bu da bəşəriyyəti narahat edən çox ciddi problemin müzakirəsinə həsr olunmuşdu. Təbii ki, cənab İlham Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında, Cənubi Qafqaz regionunda, beynəlxalq müstəvidə vermiş olduğu töhfələri sadalamaqla sonlandırmaq mümkün deyil. Bu baxımdan hesab edirəm ki, bu gün Yeni Azərbaycan Partiyasının İdarə Heyəti tarixi bir qərar verirlər".

Çıxış edən YAP İdarə Heyətinin üzvü Elnarə Akimova bildirib ki, taleyimizdə xüsusi rolu olan müstəqillik dönəminin son 20 ilində Prezident İlham Əliyevin misilsiz xidmətlərinin olduğu danılmaz bir faktdır. Cənab İlham Əliyev liderlik statusuna və fəaliyyətinə yeni anlamlar qazandıran bir şəxsiyyətdir. Təbii ki, o, Azərbaycanın dünya arenasında tanıdılması üçün misilsiz xidmətlər göstərib. "Düşünürəm ki, Prezident İlham Əliyevin ən böyük xidmətlərindən biri bütün fəaliyyəti ərzində milli məfkurəyə yönəlik siyasət yürütməsi, azərbaycançılıq ideologiyasını uca tutması, milli məfkurənin bütün dəyərlərini, bütün çalarlarını qorumasıdır. Prezidentimiz Şuşanı "Azərbyacanın mədəniyyət paytaxtı" elan etmişdi. Bu il isə Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" elan olundu. Gələn il üçün "İslam dünyasını mədəniyyət paytaxtı" elan olunub. Heç şübhəsiz ki, növbəti illərin birində Şuşa həm də dünyanın mədəniyyət paytaxtına çevrilə bilər. Çünki Prezident İlham Əliyev Şuşanı həm də bütün dünyaya qazandırdı, bu şəhərin mədəniyyət beşiyi, onun nə qədər böyük sivilizasiya mənbəyi olduğunu sübut etdi",- deyə E.Akimova vurğulayıb. O qeyd edib ki, Prezident İlham Əliyev təkcə 30 illik deyil, 200 illik tarixi taleyimizdə bütöv Azərbaycan anlayışını yenidən özümüz qaytardı. Qarşıda da bir sıra məsələlər var ki, onların da həlli məhz cənab İlham Əliyevdən asılıdır. Buna görə yenə də onun liderliyinə ehtiyacımız var".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov çıxışında bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2023-cü il 15 oktyabr tarixində Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə üçrəngli bayrağımızı ucaltması ilə Azərbaycan bütövləşdi: "Gənclər son 30 il ərzində daim bu fikirlə böyüyürdü və bilirdi ki, Qarabağ təkcə torpaq məsələsi deyil, Qarabağ həm də namus, qeyrət məsələsidir. Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpa olunması və bötüvləşməsi xalqımızın şərəfini özünə qaytardı. Azərbaycan xalqının başını uca edən cənab İlham Əliyev oldu".

K.Cəfərov deyib ki, məhz Ulu Öndər



Heydər Əliyevin anadan olmasının 100 illiyində Azərbaycanın bütövləşməsi də təsadüfi deyil: "Çünki istər sovet Azərbaycanı dönəmi, istər müstəqillik zamanı, istərsə də indiki tarix onu göstərir ki, Azərbaycanın rifahı həmişə Heydər Əliyev irsi ilə bağlı olub. Bu gün də əminik ki, Azərbaycan məhz Heydər Əliyev irsi ilə yeni Azərbaycandan qüdrətli Azərbaycana əmin addımlarla irəliləyəcək".

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs bütün mənalarda Azərbaycan xalqının maraqlarına əsaslanıb: "Əlbəttə ki, Ümummilli Lider Heydər Əliyevin yaratdığı təməl üzərində Prezident İlham Əliyevin 20 illik uğurlu fəaliyyəti güclü, müstəqil, öz qətiyyəti və mövqeyi ilə dünyada seçilən bir ölkə quruculuğuna həsr edilib. Cənab İlham Əliyev yalnız Azərbaycanın deyil, bütün bəşəriyyətin maraqlarını əsas götürərək dünyada gedən proseslərə təsir göstərmək, beynəlxalq təşkilatları məhz insan amilinə xidmət etməyə yönəltmək kimi məzmunlu siyasət həyata keçirən bir şəxsiyyət kimi dünyada tanınmaqdadır. Ona görə düşünürəm ki, bugünkü qərarımız həm də regionda sülh və əmin-amanlığa, təhlükəsizliyə, yeni nizamın insanların maraqlarına uyğun qurulmasına xidmət edəcək bir addım kimi dəyərləndirilməlidir. Bu qərar Azərbaycan xalqının ürəyincədir, onun hər bir nəfərinin marağında olan məsələdir. Yanaşma bundan ibarətdir ki, biz növbəti dönəm üçün də Azərbaycan, region və dünyadakı nizamın hər bir insan üçün faydalı olmasına xidmət edəcək fəaliyyət ortaya qoyan şəxsiyyəti Prezident seçməliyik. Bu, Azərbaycanın gələcək inkişafına, növbəti illərdə də ölkəmizə və xalqımıza xidmət edəcək siyasəti dəstəkləmək deməkdir. Bu qərarımızla xalqın ümumi mövqeyini bir daha ifadə edəcəyik".

YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, Azərbaycan keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub və Prezident İlham Əliyev Heydər Əliyev yolu ilə ölkəmizi çox böyük irəliləyişə aparıb. İstər iqtisadi, siyasi müstəvidə, istərsə də beynəlxalq miqyasda Azərbaycan çox böyük nailiyyətlərə imza atıb. Onun sözlərinə görə, Qarabağın işğaldan azad edilməsi və Azərbaycanın dünya miqyasında bir çox məsələlərdə söz sahibinə çevrilməsi, o cümlədən Qoşulmama Hərəkatında Prezidentimizin rəhbərliyi ilə dünyanı düşündürən bir çox problemlərin BMT səviyyəsində gündəmə gətirilməsi cənab İlham Əliyevin tarixi xidmətləridir: "Bu tarixi xidmətlər, uğurlu missiya davam etməlidir və cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyasının Sədri kimi növbəti mərhələdə prezidentliyə namizəd olaraq irəli sürülməsi tarixi zərurətdir. Onun xalq tərəfindən dəstəklənməsi və qələbə qazanması isə aksiomadır. Əminəm ki, Prezident İlham Əliyev tarixi missiyasını yeni uğurlarla, yeni zirvələr fəth etməklə davam etdirəcək. Biz yeni zirvələrin fəthi istiqamətində Prezidentimizin yenidən namizədliyinin irəli sürülməsinə birmənalı şəkildə dəstək verəcəyik".

M.Qurbanlı qeyd edib ki, Yeni Azərbaycan Partiyası və onun üzvləri Azərbaycan cəmiyyətinin bütün təbəqələrini özündə birləşdirir: "Əminəm ki, yalnız ölkə vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının gözü bu gün Vətəndədir. Çünki Azərbaycan onlar üçün istinad nöqtəsidir, bir mayakdır və Prezident İlham Əliyev də dünya azərbaycanlılarının lideridir. Ona görə də dövlət başçısı İlham Əliyevin yenidən namizədliyinin irəli sürülməsi, qeyd edildiyi kimi, tarixi zərurətdir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev xalqımızın qürurlu, şərəfli və möhtəşəm tarixi anlar yaşadığını bildirib: "Ölkəmizin qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası cənab İlham Əliyevin prezidentliyə namizədliyini irəli sürür. Ümummilli Lider Heydər Əliyevin siyasi xəttini böyük inamla həyata keçirərək ölkəmizi rəhbərlik etdiyi 20 il ərzində başqa dövlətlərin yüz illərlə keçmədiyi bir uğurlu yolla aparan, Azərbaycanın tarixi qələbəsini təmin edən, ərazi bütövlüyünü və suverenliyini bərpa edən Prezident İlham Əliyev xalqımıza şərəfli anlar, möhtəşəm günlər yaşatdı, xalqın mübarizə və qəhrəmanlıq ruhunu yenidən dirçəltdi və özünə qaytardı".

M.Quliyev deyib ki, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 20 il ərzində ölkəmizin sosial-iqtisadi inkişafı olduqca böyük sürətlə davam edib. Bu illər ərzində dövlətimizin sosialyönümlü xərclərinin büdcəsi 20 dəfə, minimum əməkhaqqı 38 dəfə, orta aylıq əməkhaqqı 12 dəfə, minimum pensiya 16 dəfə, orta aylıq pensiya 14 dəfə artıb: "Müqayisə etsək, görərik ki, dünyada elə bir dövlət yoxdur ki, bu qədər böyük sosialyönümlü siyasət aparsın, belə uğurlar əldə etsin. Prezident İlham Əliyev həmişə bəyan edib ki, bizim siyasətimizin mərkəzində Azərbaycan xalqı, onun rifahı dayanır. Bu gün xalqımızın bütün zümrələrindən olan nümayəndələri dövlət başçısına inanır, ona güvənir",- deyən YAP İdarə Heyətinin üzvü əlavə edib ki, qarşıda böyük perspektivlər var, Qarabağın və Şərqi Zəngəzurun bərpası məsələsi əsas vəzifələrdəndir. Heç şübhəsiz ki, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə daha böyük qələbələrə hazırdır.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin genişləndirilmiş iclası mahiyyət etibarilə tarixi əhəmiyyət daşıyır: "Çünki İdarə Heyətinin iclasında YAP-ın prezidentliyə irəli sürdüyü namizəd "Hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" vədinə hər zaman sadiq qalan, sözü imzası qədər keçərli olan, nəyi nə zaman və necə etməyi bilən bir liderdir. O, elə bir liderdir ki, Azərbaycana neçə yüzilliklərdən sonra tarixinin ən güclü dövrünü yaşatdı. Cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsi həm də Heydər Əliyev siyasətinin dəstəklənməsidir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili çıxışında bildirib ki, hər bir dövlətin gücü həm də onun



iqtisadiyyatı ilə ölçülür. Azərbaycanın iqtisadiyyatı son 20 il ərzində möhtəşəm bir yol keçib. "Məhz Azərbaycanın iqtisadi gücünün mütəmadi artması torpaqlarımızın işğaldan azad edilməsinə, iqtisadi gücümüzün milli maraqlara xidmət etməsinə gətirib çıxardı. Son 20 il ərzində Azərbaycan iqtisadiyyatı 4 dəfə böyüyüb. Bizim büdcə xərclərimiz təxminən 30 dəfə böyüyüb. Bu gün Azərbaycanın strateji valyuta ehtiyatları Azərbaycanı borcdan ən az asılı olan bir dövlətə çevirib ki, bütün bunların səbəbi Prezident İlham Əliyevin iqtisadi sahədə tətbiq etdiyi yeniliklərdir. Hər bir xalq istəyər ki, onun rəhbəri qətiyyətli, ədalətli, humanist olsun və milli maraqları müdafiə etsin. Cənab İlham Əliyev belə bir liderdir. O, ölkəmizə rəhbərliyi dövründə Azərbaycan xalqının bütün maraqlarını təmin etmək üçün bir addım belə geri çəkilmədi. O, Azərbaycan xalqının başını dik tutdu",- deyən T.Mirkişili əlavə edib ki, bütün bu reallıqları nəzərə alsaq, əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi Azərbaycan xalqının istəyidir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Şahin İsmayılov bildirib ki, Prezident İlham Əliyev ötən dövr ərzində fəaliyyəti ilə nəinki Azərbaycanda, həm də dünya miqyasında uğurlu siyasətçi obrazını yarada bilib. Onun fikrincə, Prezident İlham Əliyev uğurlu fəaliyyəti ilə, eyni zamanda, Azərbaycanın gələcək obrazını yarada bilib: "O nəinki Azərbaycanın gələcək obrazını yaratdı, eyni zamanda, regionun gələcəyi ilə bağlı özülləri qoydu. Qarabağ probleminin həll olunması ilə Azərbaycanın və Cənubi Qafqazın regionda, dünyada yeri və rolu önə çıxdı. Məhz budur qlobal lider, qlobal siyasətçi, gələcəyə yön verən və Azərbaycanın yerini müəyyən edən lider".

Ş.İsmayılov söyləyib ki, cənab İlham Əliyevin növbəti dönəmdə Prezident seçilməsi nəinki Azərbaycan üçün, o cümlədən beynəlxalq miqyasda da bir siyasi arzu və ümiddir: "Çünki Prezident İlham Əliyev beynəlxalq miqyasda özünəməxsus yeri və rolu olan bir liderdir. Mən də siyasi həmfikirlərimin mövqeyini dəstəkləyərək cənab İlham Əliyevin prezidentliyə namizədliyini dəstəkləyirəm".

Ardı Səh. 6

Əvvəli Səh. 5

# YAP İdarə Heyətinin genişləndirilmiş iclasında cənab İlham Əliyevin prezidentliyə namizədliyi irəli sürülüb

YAP İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov bildirib ki, cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi Heydər Əliyev yoluna sədaqət nümunəsidir: "Cənab İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən sonra növbəti prezidentlik fəaliyyətində daha möhtəşəm bir missiyanı həyata keçirəcəyinə inanırıq. Bu, Cənubi Qafqazda əbədi sülhün bərqərar olunmasıdır. Cənubi Qafqazda əbədi sülhü yalnız və yalnız cənab Prezident bərqərar edə bilər. İkinci ən böyük missiya Türk dünyasını birləşdirməkdir, onu da cənab İlham Əliyev edəcək. Ona görə də bu böyük missiyaların həyata keçirilməsi üçün cənab İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürülməsi tarixi zərurətdir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov çıxışında bildirib ki, dövlət başçısı İlham Əliyev 20 il ərzində Azərbaycan xalqı, dövləti qarşısında misilsiz xidmətləri ilə ölkəmizin, bəlkə də, bir əsrlik inkişafını təmin edib: "Bu gün Azərbaycan dünyanın ən nüfuzlu ölkələrindən birinə çevrilib. Ölkəmizin Qoşulmama Hərəkatı kimi BMT-dən sonra ən böyük beynəlxalq təsisata rəhbərlik etməsi, Azərbaycanın haqq işinin, ərazi bütövlüyümüzün və suverenliyimizin təmin edilməsi, təkcə erməni faşizminə deyil, onun arxasında duran qüvvələrə də qalib gəlməsi tarixi uğurlardır. Dünyada ikili standartlar mövcuddur və Azərbaycana qarşı müəyyən dairələr bunu tətbiq edirlər. Azərbaycan Prezidentinin qətiyyətli siyasəti, dəmir iradəsi qarşısında onlar heç nəyə nail ola bilmədilər. Bu gün Azərbaycan özünün ən parlaq günlərini yaşayır. Dövlət başçımızın da qeyd etdiyi kimi, çoxəsrlik tarixində Azərbaycan heç vaxt bu qədər güclü olmayıb. 20 il ərzində xalqımız hər zaman Prezident İlham Əliyevin siyasətini dəstəkləyib. Bu reallıq dəyişməzdir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı möhtəşəm uğurlardan bəhs edib. Onun sözlərinə görə, ötən dövrdə bütün sahələrdə olduğu kimi, idman sahəsində də böyük nailiyyətlər qazanılıb. R.Əliyev deyib ki, cənab İlham Əliyev 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra idmanın inkişafında yeni bir mərhələ başlandı: "Görülən işlər nəticəsində bu sahənin inkişafına nail olmaqla yanaşı, ölkəmiz mötəbər beynəlxalq idman tədbirlərinə də müvəffəqiyyətlə ev sahibliyi edir. Azərbaycanda Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula 1 və digər beynəlxalq idman yarışları keçirilib".

"Azərbaycan dünyada nüfuzlu dövlətə çevrilib. Biz inanırıq ki, Prezident İlham Əliyev növbəti mərhələdə də möhtəşəm uğurlara imza atacaq",- deyə R.Əliyev bildirib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov çıxışında 2023-cü ilin Azərbaycan üçün böyük uğurlarla yadda qaldığını bildirib: "Dövlət suverenliyinin tam təmin olunması, beynəlxalq müstəvidə mövqelərimizin daha da möhkəmlənməsi, keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıdışı möhtəşəm uğurların nümunəsidir. Təbii ki, bu uğurlara Ulu Öndər Heydər Əliyevin siyasi kursunu inamla davam etdirərək Azərbaycan dövlətinə, xalqına liderlik edən Prezident İlham Əliyevin sayəsində nail olmuşuq. Ölkəmizin gələcək uğurları da cənab İlham Əliyevin adı ilə bağlıdır. Ona görə də partiyamızın Sədrinin prezidentliyə namizədliyinin irəli sürülməsindən qürur duyuruq".

YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə Prezident İlham Əliyevin uzaqgörən siyasətçi və dövlət xadimi olduğunu bildirib. A.Rəhimzadə dövlətimizin başçısının təşəbbüsü ilə həyata keçirilən regional və qlobal layihələrin önəmindən bəhs edib.

O, Prezident İlham Əliyevin enerji siyasətinin əhəmiyyətindən də danışıb: "Məlumdur ki, Azərbaycan neft-qaz ölkəsidir. Bununla belə, cənab İlham Əliyev ölkəmizin "yaşıl enerji"yə keçidini elan edib. Bu istiqamətdə böyük layihələr həyata keçirilir. Düşünürəm ki, Prezidentimizin gələcək üçün də çox böyük layihələri var. Bu layihələri həyata keçirməkdən ötrü cənab İlham Əliyevin növbəti dövrdə də ölkəmizə rəhbərlik etməsi lazımdır".





Müzakirələrə yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov İdarə Heyətinin üzvlərinin yekdil fikirdə olduğunu bildirib. "Bu müzakirələr bir daha göstərdi ki, Azərbaycanda Heydər Əliyev siyasətinə alternativ yoxdur. Cənab İlham Əliyevin siyasəti Azərbaycanı daha parlaq gələcəyə aparır, ölkəmizin daha güclü dövlət kimi beynəlxalq arenada öz mövqelərini möhkəmləndirməsinə zəmin yaradır. Prezident İlham Əliyev davamlı inkişafa yönəlmiş siyasəti ilə ölkəmizə bundan sonra da böyük uğurlar, yeni zəfərlər, zirvələr bəxş edəcək",- deyə YAP Sədrinin müavini vurğulayıb.

Müzakirələrin sonunda Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyevin 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərində Yeni Azərbaycan Partiyasından namizəd irəli sürülməsi haqqında yekdilliklə qərar qəbul olunub.

Sonra Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

Daha sonra iclasın gündəliyində olan digər məsələlər müzakirə olunub. İclasda 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planı təsdiq edilib.

Sonra Azərbaycan Respublikası Prezidentliyinə namizəd irəli sürmüş Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin təyin edilməsi məsələsinə baxılıb. YAP Sədrinin müavini-Mərkəzi Apartın rəhbəri Tahir Yaqub oğlu Budaqov və YAP Sədrinin müavini Əli Cavad oğlu Əhmədov Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri, YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Safalan oğlu Tağıyev isə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilib.

İclasda Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının yaradılması və onun tərkibinin təsdiq edilməsi məsələsi də müzakirə olunub. Müzakirələrdən sonra 21 nəfərdən ibarət YAP Mərkəzi Seçki Qərargahının yaradılması haqqında qərar qəbul olunub.

**YAP Mərkəzi Seçki Qərargahının üzvləri aşağıdakı tərkibdə təsdiq edilib:**

**1. Budaqov Tahir Yaqub oğlu** - YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri

**2. Əhmədov Əli Cavad oğlu** - YAP Sədrinin müavini

**3. Rəhimzadə Arif Qafar oğlu** - YAP Veteranlar Şurasının sədri, İdarə Heyətinin üzvü

**4. Qurbanlı Mübariz Qəhrəman oğlu** - YAP İdarə Heyətinin üzvü

**5. Muradova Bahar Əvəz qızı** - YAP İdarə Heyətinin üzvü

**6. Hüseynova Sevinc Əmirəhməd qızı** - YAP Təftiş Komissiyasının sədri

**7. İslamov Bəxtiyar Qabil oğlu** - YAP Gənclər Birliyinin sədri

**8. Tağıyev Əhliman Safalan oğlu** - YAP Mərkəzi Aparatı rəhbərinin müavini

**9. Novruzov Siyavuş Dünyamalı oğlu** - Milli Məclisin deputatı, Milli Məclisin Regional məsələlər komitəsinin sədri

**10. Qələndərov Nurlan Vəli oğlu** - YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri

**11. Hüseynov Nazim Meyxoş oğlu** - YAP Mərkəzi Aparatının Maliyyə-təsərrüfat şöbəsinin müdiri

**12. Bədəlova Ramilə Alxan qızı** - YAP Mərkəzi Aparatının Sənədlərlə iş və statistika şöbəsinin müdiri

**13. İmaməliyev Asif Ağalar oğlu** - YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə əlaqədar iş şöbəsinin müdirinin müavini

**14. Gülməmmədov Rəfael Şirməmməd oğlu** - YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdirinin müavini

**15. Musayeva Zəkiyyə Balağa qızı** - YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdirinin müavini

**16. Məmmədli Hülya Gündüz qızı** - YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdirinin müavini

**17. Məhərrəmov Məhəmməd Yusif oğlu** - YAP Həmkarlar İttifaqı Komitəsinin sədri

**18. Musayev Alqış Həsən oğlu** - "Yeni Azərbaycan" qəzetinin baş redaktoru

**19. Quliyev Bəhruz Vaqif oğlu** - "Səs" qəzetinin baş redaktoru

**20. Rəhimzadə Vüqar Gəncəli oğlu** - YAP Xətai rayon təşkilatının sədri, "İki sahil" qəzetinin baş redaktoru

**21. Vəlibəyov Ramil Vaqif oğlu** - YAP Nizami rayon təşkilatının sədri.

İclasa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov seçki kampaniyasının uğurla həyata keçirilməsi üçün qarşıda duran vəzifələrdən bəhs edib, bu şərəfli və məsuliyyətli işdə partiya üzvlərinə uğurlar arzulayıb.

# Dilənərək alınan və əyləncəyə xərclənən MİLYONLAR

***Azərbaycana məxsus olan torpaqları özlərininki kimi tanıtmaqdan ötrü hər sifətə girən, sonra da guya öz torpaqlarından məhrum olduqlarına görə yazıq, məzlum duruma düşdüklərini göstərən və bununla da hayasızcasına yardım, iyanələr dilənən haylar aldıqları dilənçi payını bayram ab-havası, yeni il şənliyi üçün sağa-sola xərcləməkdən çəkinmirlər. Çox ehtiyac içərisində olduqlarını nümayiş etdirərək, xarici donorlardan maliyyə yardımı dilənənlər indi sevinclə təmtəraqlı alış-veriş edirlər və artıq həmin o yazıq görkəmi aldıqları heç yadlarına da düşmür.***













Qarabağdan cəmi 10-15 min sayda köç edən erməninin sayının 100 mindən çox olduğunu yalandan yayaraq, guya onların təminatı məqsədi ilə yardım dilənənlər İrəvan küçələrinin bəzədilməsinə milyonlar xərcləyirlər, amma köç edənlərin həmin küçələrdə sərgərdan gəzmələrinə, birtəhər yaşamalarına məhəl də qoymurlar. Köç edən insanların həyat üçün elementar şərait və imkanlarının belə olmadığını deyərək, dünyaya səs salan və bununla da külli miqdarda vəsait dilənənlər bayram əhval-ruhiyyəsi ilə əylənməyə hazırlaşırlar. Küçə və meydanların müxtəlif bər-bəzəklə təmin olunması üçün külli miqdarda vəsaitləri düşünmədən səpələyənlər özlərini heç bir şeydən məhrum etmək niyyətində görünmürlər. Belə dəb-dəbə üçün milyonları bir neçə gün ərzində küçələrə, həmin küçələrin bər-bəzəyinə "tökənlər" nə yazığa oxşamırlar, nə də onlar küçələrdə sərgərdan kimi gəzənlərin halına acıyan kimi görünə bilməzlər.

Bəli, İrəvan meriyası yeni ilə hazırlaşır. Ermənistan hökuməti bir tərəfdən pul çatışmazlığından şikayətlənir, digər tərəfdən də paytaxtda yeni il bəzəklərinə yüz milyonlarla dram pul xərcləyir. Hətta bəhanə də tapırlar və deyirlər ki, guya bunu uşaqlara görə edirlər və başlarına gələn müsibətlərdə uşaqların heç bir günahı yoxdu deyə onları şənlikdən məhrum etməyə haqları çatmırmış. Məsələ burasındadır ki, guya uşaqlar üçün milyonlar xərcləyənlər onların böyükləri üçün qəpik quruşu da qıymırlarsa, deməli, uşaq söhbəti sadəcə bir bəhanədir və bunu özləri üçün edirlər. Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumatlarda qeyd olunur ki, İrəvanın çox kiçik olan mərkəzinə yeni il şənliyi üçün düz 202 milyon dramdan çox vəsait ayrılıb. Bu isə o deməkdir ki, guya uşaqların şənlənməsi üçün düz yarım milyon dollardan artıq pul xərclənib. Bu vəsaitlərin uşaqlar üçün xərclənciyi heç də inandırıcı deyil və bunun onlar tərəfindən iddia edilməsi belə gülüncdür.

Maraqlıdır, ötən ilki işıqlandırma sistemləri ilə mərkəzi küçələri niyə bəzəmək istəmirlər? Bəlkə, ötən ilki bər-bəzəyin bu il uşaqları sevindirəcəyinə şübhə edirlər? Yaxud, bəlkə elə hesab edirlər ki, ötən il quraşdırdıqları həmin işıqlar, bər-bəzək anbarlardan gətirilib İrəvan küçələrində quraşdırılsa, uşaqlar onlardan inciyə bilərlər? Təbii ki, bu, ironiyadır, sarkazmdır və bunu iddia etmək axmaqlıq, buna inanmaq isə sadəlövhlükdür. Hər kəs, ələlxüsus da ermənilər özləri də bilirlər ki, həmin bər-bəzək, həmin çil-çıraq, həmin dəb-dəbə ancaq kimlərinsə özləri üçün, özlərinin bayram əhval-ruhiyyəsi üçün, özü də bircə günlük bayram ab-havası üçün nəzərdə tutulub. Sözsüz ki, uşaqlardan fərqli olaraq, onlar ötən ilin bərbəzəyindən gözlərinin "doyduğu" qənaətindədirlər və öz kefləri üçün bu qədər vəsaitin xərclənməsi də heç vecərinə belə deyil.

Bir il əvvəl belə bər-bəzək alınması üçün tender elan edənlər qalibi də elə tender yolu ilə müəyyən etmişdilər, vəsaiti də özləri müəyyən etdikləri "qalibə" ödəyib bər-bəzəklə təmin olunmuşdular. Daha bir maraqlı məqam ondan ibarətdir ki, bu il də eyni şəkildə tender elan etdilər, amma yenə də "qalib" eyni şirkət oldu və eyni ilə keçən il aldıqlarını bu il də eyni şirkətdən aldılar, hansıki, bu barədə Ermənistana məxsus mətbuat səhifələrində kifayət qədər informasiyalar yayılmaqadır. Bəllidir ki, 202 milyon dram və ya yarım milyon dollar başqalarına, fərqli şirkətə, fərli ünvana yox, məhz eyni "yerə" bu il də ödənilir və müzakirə mövzusu olmasa da, bu özü belə, çox diqqət çəkən məqamdır. İrəvanın bayram görkəmindən həzz almaq və özlərinə şənlik etmək üçün yenidən mərkəzi meydanda yerləşən binaları artıq yenidən deşməyə başlayıblar. Hətta köhnə deşiklərdən belə istifadə etmirlər ki, uşaqların xətrinə dəyər, yaxud da bundan incik düşərlər. Yəni, hadisələrin gedişi də təsdiq edir ki, uşaqlar üçün şənlik nəzərdə tutduqları barədə bu qədər ağ yalana heç uşaqları da inandırmaq mümkün olmadığı halda, haylar bunu elə həyasızcasına da utanmadan iddia edirlər.

İrəvanın mərkəzinin yeni il dekorasiyası və işıqlandırılmasına 202 milyon dram xərcləyənlər deyəsən, bununla da kifayətlənmək niyyətində deyillər. Belə görünür ki, onları nə isə qane etmir və artıq inzibati ərazi dairələri üzrə də "hazırlıqlara" başlanılıb. Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumatlardan belə aydın olur ki, Malatiya-Sebastiya inzibati dairəsinin cəmi 3 küçəsinin yeni il dekorasiyası üçün bu yaxınlarda təxminən 10 milyon dram da ayrılıb. Bəlkə də qalan inzibati rayonlar da öz növbələrini gözləyirlər. Yəqin, indi də iddia edəcəklər ki, bu qədər vəsaiti xərclədikdən sonra cəmi 10 milyon drama görə uşaqların xətrinə dəymək istəməyiblər və həmin küçələri də ona görə bəzəmək qərarına gəliblər. Hətta bu yaxınlarda Axtanak körpüsünün bədii işıqlandırmasının müasirləşdirilməsi üçün daha 60 milyon dram vəsait ayrılmasını da uşaqlar üçün etdiklərini iddia edə bilərlər. Bizdə bir məsəl var, deyirlər ki, utanmasan toyda oynamağa nə var. İndi haylar da öz həyasızlıqları fonunda nə ağıllarına gəlsə deyə bilərlər, bu, gözlənilməndir, çünki qətiyyən utanan kimi görünmürlər. Hayların belə həyasız iddia ilə çıxış edə biləcəyi təqdirdə də dedikləri təəccüb doğurmaya bilər, çünki artıq onların buna alışqan olduqları qəbul da edilib. Əgər bundan sonra da yeni il şənliyi üçün yaxın gələcəkdə bayram xərcləri artmaqda davam edərsə, çətin ki, buna da təəccüblə yanaşan ola.

İndi növbə belə gözləmədən yeni il süfrələrinə dəbdəbəli sifarişlər verənlər barədə də işğalçı ölkənin KİV-lərində yetərincə məlumatlar yayımlanır. Kimlərsə, elə indidən qızardılmış donuz əti, qızardılmış toyuq, balıq və balıq məhsulları, soyuq yeməklər, salatlar, min bir qəlyanaltı sifariş etməkdədirlər. Hətta bəzi erməni mənbələrində qeyd olunur ki, bir çoxları süfrələrində, stollarının üstündə yaşı ən azı on ildən yuxarı olan konyak olmazsa, bərk pərişan olacaqları ilə bağlı deməkdən də çəkinməyiblər. Bəlkə yenə də iddia etmək istəyirlər ki, elə yaşı ən azı on ildən yuxarı olan konyak da uşaqlar üçün nəzərdə tutulub və onların belə keyfiyyətli konyak içib keflənməleri üçün çalışırlar? Hər halda, hay olsalar da, bu qədər həyasızlıq etmək həddi aşmaqdır...

Dəbdəbəli yeni il keçirmək niyyətlərinə kənardan baxanda belə bir təəssürat yaranır ki, guya aldıqları iyanələr, dilənçi payı ilə elə bil ölkələrini çiçəkləndiriblər, bütün problemlərini də həll ediblər, küçələrdə hələ də sərgərdan qalanların bütün qayğıları həll olunub, indi də özlərini mükafatlandırmaq qərarına gəliblər. Bəlkə də elə hesab edirlər ki, bir il zəhmət çəkiblər, bir az dincəlmək onların, yaxud da uşaqların haqqıdır. Yəni, həmin ölkənin prezidenti, baş naziri, Milli Məclisin sədri təmtəraqlı yeni il qəbulları təşkil etmək, qəbul zamanı da dırnaqarası da olsa "əzmkarlıqla" və "fədakarlıqla" görülən "genişmiqyaslı işlərdən", "uğur və nailiyyətlərindən" danışmaq qərarına gəlib yoxsa? Bəlkə misilsiz qırnaqarası "iqtisadi artımdan", həyata keçirdiləri "islahatlardan", vətəndaşların "gəlirlərinin artmasından", cəmiyyətin sosial vəziyyətində "sıçrayışlı irəliləyiş" əldə edilməsindən danışmaq fikrindədirlər deyə belə təmtəraqlı şənlik fikrinə düşüblər? Amma bütün bu sadalananları Ermənistan vətəndaşları heç yuxularında da görə bilmirlər və səfalət içərisində inləyirlər. Nəinki uşaqların, heç onların valideyinlərinin belə yadına indi yeni il düşmür. Yeni il barədə, özlərini şəndirmək barədə düşünənlər tamamilə başqalarıdır, erməni xalqının sıravi nümayəndələri, onların uşaqları deyil.

İşğalçı ölkənin təcili həllini tələb edən çoxsaylı problemləri olduğu halda, dilədikləri vəsaitlərin israfçılıqla xərclənməsi onların əsl mahiyyətini ortaya qoyur. Çörək pulu olmayan on minlərlə ermənin dəbdəbəli yeni il şənliyinə ehtiyacı ola bilərmi və bu reallığı guya həmin o dilədikləri milyonları əyləncəyə xərcləyənlər başa düşmürlərmi? Vəsait çatışmazlığını bildirib, əl açıb dilənərək, əldə edilən vəsaitləri istədikləri kimi xərcləyənlər xalqının halına yanan kimi özlərini göstərə bilməzlər. Dilənərək aldıqları vəsaitlərlə ildə bir dəfə ofislərini təmir edənlər, mebellərini yeniləyənlər, bahalı maşınların birini digəri ilə əvəz edənlər ölkə vətəndaşlarını yox, özlərini düşünürlər. Ermənistan adlı ölkənin başına gələn fəlakətlər, orada yaşayan insanların müsibətləri, fəryad səsləri öz əyləncələrini hər şeydən üstün tutanların sevincində boğulur. Bax, əsl həqiqət budur. Əsl həqiqət odur ki, erməni xalqının fəryadına fikir verməyənlər özləridir, başqaları deyil. Elə bu həqiqəti dünya ictimaiyyəti görməlidir və dərk etməlidir ki, onlardan dilənərək aldıqları milyonları qətiyyən səfalət içərisində olan erməni xalqına xərcləmək niyyəti belə ortada yoxdur. Hər halda, bu həqiqət dərk edildiyi zaman əyləncələrə xərclənən milyonların, dilənçi payı kimi də olsa belə, verilməsinə məhdudiyyətlər qoyular və bununla da məhrumiyyətlər fonunda işğalçı ölkə hakimiyyəti, onun siyasi rəhbərliyi hər bir istiqamətdə öz məsuliyyətini dərk etməli olar. Ən azından dərk etməli olar ki, ölkənin müqəddəratı üçün büdcə vəsaitlərinə, bunun üçün də iqtisadi inşişafa ehtiyac var və iqtisadi əlaqələr, bu əlaqələrə görə də ölkələrlə münasibətlərin normallaşdırılması olduqca vacibdir. Məsuliyyət dərk edildiyi təqdirdə, əlbəttə ki, doğru, düzgün addımlar atılar, məqsədyönlü siyasət yürüdülər və bu da onların özlərinin yaratdıqları problemlərin aradan qalxmasına gətirib çıxarar. Amma fakt budur ki, dilənərək alınan və əyləncəyə xərclənən milyonlar bu barədə düşünməyə belə onlara imkan vermir və dilənçi payı kimi verilən vəsaitlər nəticədə ermənilərin özlərini daha ağır durumlara sürükləyir...

***İnam Hacıyev***

# Bakı yenidən dünyanın mərkəzi olacaq

## Prezident İlham Əliyev: "Dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır"



Azərbaycanın bütün sahələrində, o cümlədən kənd təsərrüfatında, kosmik və hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurları, eləcə də, beynəlxalq arenada qurduğu münasibətləri və davamlı inkişafı Azərbaycanın dünyada tanınmasına, söz və nüfuz sahibinə çevrilməsinə səbəb olan amillərdir. Azərbaycan qeyd olunan sahələrlə yanaşı, tolerant və multikultural dəyərlərə malik dövlət kimi də dünyada tanınır. Ölkəmizdə beynəlxalq tədbirlərin təşkili Azərbaycan dövlətinin sülhsevər olduğunu və multikulturalizm siyasətini bir daha dünya ictimaiyyətinə təqdim edir. Beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ölkəmizə olan etimad Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasının göstəricisidir. Eyni zamanda, bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir.

### "APARDIĞIMIZ SİYASƏT NƏTİCƏSİNDƏ DÜNYA MİQYASINDA ÇOX GÜCLÜ MÖVQELƏRƏ SAHİB OLMUŞUQ"

Beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə maraqlı olan Azərbaycan dövləti bu toplantıların yüksək səviyyədə keçirilməsinə böyük şərait yaradır. Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən bu tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günü-gündən daha da sarsılmaz edir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un gələn il Azərbaycanda keçirilməsi əlbəttə ki, ölkəmizə olan daha bir ehtiramın təzahürüdür. "Bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı." Bu fikirləri dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə dövlət başçımız bildirib.

Əlbəttə ki, Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Təbii ki, beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin inkişafının təqdimatı baxımından da əhəmiyyətlidir. İlk növbədə ölkəmizə gələn qonaqlar inkişafı öz gözləri ilə görmək imkanı qazanır, daha sonra isə bu haqda ətraflı məlumatlanırlar. Bu cür tədbirlər eyni zamanda ölkəmizin beynəlxalq imicinə də müsbət təsir edir. Azərbaycan artıq beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib.

### "BU QƏRAR ANTİTERROR ƏMƏLİYYATINDAN İKİ AY YARIM SONRA QƏBUL OLUNMUŞDUR"

Cari ilin sentyabrında rəşadətli ordumuz Qarabağda keçirilən lokal antiterror tədbirləri nəticəsində erməni hərbi birləşmələrini diz çökdürdü. Cəmi 24 saat ərzində qarşı tərəf ağ bayraq qaldıraraq təslim oldu. 44 günlük Vətən müharibəsindən sonra Ermənistan silahlı qüvvələrinin hər bir təxribatının qarşısını qətiyyətlə alması bir daha ordumuzun gücünün göstəricisidir. 23 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazilərində suverenlik tam bərpa olundu. "Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi. Düzdür, antiterror tədbirlərindən sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror tədbirləri keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Bəzi Qərb ölkələri, onların arasında təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil. Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir", - deyə Prezident çıxışında diqqətə çatdırıb.

### "İRİMİQYASLI BEYNƏLXALQ TƏDBİRLƏRİN KEÇİRİLMƏSİ TƏBİİ Kİ, ÜZƏRİMİZƏ BÖYÜK MƏSULİYYƏT QOYUR"

COP-a ev sahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edir. Hər regional qrup, üzvlərindən bu konfransı təşkil edəcək bir ölkəni irəli sürmək üçün konsensusla qərar qəbul etməlidir. 2024-cü il COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Azərbaycana yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini vermişdilər. Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri çəkib. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri götürüb. Beləliklə, dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib.

Bu, tədbir Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Cənab Prezident çıxışında bildirdiyi kimi, beynəlxalq birlik 30-40 ölkə deyil: "Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir. İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik".

### "COP29 BU VAXTA QƏDƏR KEÇİRİLMİŞ TƏDBİRLƏRLƏ MÜQAYİSƏYƏ GƏLMİR"

Bildiyimiz kimi, bu yaxınlarda paytaxt Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi növbəti uğurumuz kimi xarakterizə olundu. Konqresin Azərbaycanda yüksək səviyyədə təşkili üçün böyük hazırlıq işləri görülmüşdü. Bu tədbir indiyədək keçirilmiş digər konqreslərlə müqayisədə iştirakçıların sayı və tərkibi baxımından eyni səviyyədə idi, hətta bəzi göstəricilərə görə onlardan da üstün idi. Qeyd edək ki, altmış səkkiz ölkədən 398 üzvü birləşdirən Beynəlxalq Astronavtika Federasiyası dünyada texniki sahədə mövcud olan ən böyük qurumlardan biridir. Hələ Sovet İttifaqında ilk və yeganə Konqres Ulu Öndərin təşəbbüsü ilə Azərbaycanda Bakı şəhərində keçirilmişdir. "Hətta bu il Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirmişik. Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilmişdir. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq", - deyə Prezident müşavirədəki çıxışında qeyd edib.

### İQLİM DƏYİŞMƏLƏRİNİN QARŞISININ ALINMASI İSTİQAMƏTİNDƏ BİRGƏ ÇAĞIRIŞLAR

Vurğulayaq ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı - COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində keçirilib.

Bildiyimiz kimi, COP-28-in gündəliyinə böyük maraq var idi. Buna görə də belə bir tədbirin keçirilməsində ölkəmizin üzərinə çox böyük məsuliyyət düşür. Belə böyük tədbirin keçirilməsi çox məsuliyyətli və çox maraqlı bir proses olacaq. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır. 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulan Azərbaycan beynəlxalq ekoloji təşəbbüslərdə mühüm rol oynayıb. Dubaydakı COP28 sammitində Azərbaycanın yüksək səviyyədə təmsil olunması bunun daha bir təzahürüdür. COP28 sammitində Azərbaycanın fəal iştirakı əlbəttə ki, ölkəmizin qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfə verməsinə əsaslanır.

Xatırladaq ki, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar COP28-in dekabrın 11-də keçirilən plenar iclasında verilib. Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi uğurumuzda mühüm əhəmiyyət kəsb edir. "Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək", - deyə Prezident bildirib.

*Nəzakət ƏLƏDDİNQIZI*

# “Dəmir yumruğ”un gücü: ZƏFƏR PARADI!

Üç il bundan əvvə Azərbaycan daha bir tarixi bir günün yaşadı. Dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən Zəfər Paradı tariximizdə özünəməxsus yer aldı. Bu parad Vətən müharibəsindəki döyüşlərdən qalib çıxmış, düşmənə "dəmir yumruğ"un gücünü göstərmiş Azərbaycanın qalibiyyət yürüşü idi. Hər bir azərbaycanlının səbirsizliklə gözlədiyi tarix qələbəmizin paradı idi. Prezident İlham Əliyevin dediyi kimi, bu paradın xüsusi önəmi var: "Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir"."Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi. Azərbaycanın apardığı ən müasir döyüş əməliyyatlarının qarşısında bu texnikalar heç bir işə yaramadılar, ordumuzun hədəfinə çevrilərək metal parçasına döndülər. Belə ki, döyüşlərdə qənimət götürülmüş istifadəyə yararlı texnikalar - "KamAZ" markalı avtomobilin qoşqusunda D-30, "Ural" markalı avtomobilin qoşqusunda D-20 topları, qoşqu üzərində zenit qurğuları, "ŞİLKA", "OSA-1T", "KUB" zenit-raket kompleksləri,










piyadaların döyüş maşınları (PDM), "T-72" tankları, eləcə də istifadəyə yararsız texnikalar - zirehli "UAZ Patriot", "UAZ Hunter" minik avtomobilləri, PDM-1 və PDM-2 texnikaları, T-72 tankları və s. qəhrəman Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunun əyani təsdiqini ifadə edirdi.

## DÜNYA ERMƏNİLİYİNƏ, ERMƏNİSTANIN HAVADARLARINA VERİLƏN MESAJ

Erməni tankları Bakıya məğlub kimi gəldilər, rəşadətli Azərbaycan Ordusunun hərbi qəniməti kimi. Paradda qənimət götürülmüş Ermənistanın hərbi texnikasının nümayişi müharibədən sonra düşmənə vurulan növbəti zərbə oldu. Bu mənada Azərbaycan Ordusunun Zəfər paradı həm də dünya erməniliyinə, Ermənistanın havadarlarına verilən bir mesaj idi. Bundan sonra Ermənistanın bir daha Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməyə cürəti çatmayacaq.

Etiraf etməliyik ki, son iki yüz ildə xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər qədər möhtəşəm qələbə yoxdur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxışı zamanı bildirib ki, bu zəfər tarixi zəfərdir: "Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq."

Əminik ki, əsrlər keçəcək əsrin müharibəsi sayılan Vətən savaşımızın Zəfər salnaməsi başqa xalqlar üçün də qəhrəmanlıq dastanı kimi örnək olacaqdır. Sözsüz ki, bu ZƏFƏR xalqımızın il ərzində qeyd etdiyi tarixi və bayram günlərini taclandıran bir Bayram kimi xalqımız var olduqca qeyd ediləcəkdir. Ərazi bütövlüyümüz bərpa olunduqdan sonra, Azərbaycan ictimaiyyəti, qardaş Türkiyə, eləcə də, dünya azərbaycanlıları və Azərbaycanın dostları ZƏFƏRin Azadlıq meydanında təntənə ilə paradla qeyd edilməsini gözləyirdi. Bu paradda bütün xalq Şuşa şəhəri azad edildikdən sonra, cəsur və igid hərbçilərimiz tərəfindən orada ucaldılmış Zəfər bayrağını görmək istəyirdi.

## "TÜRKİYƏNİN AZƏRBAYCANA VERDİYİ SİYASİ VƏ MƏNƏVİ DƏSTƏK HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞINI QÜRURLANDIRIR"

2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı, türk əsgər və zabitlərinin iştirakı ilə keçirilmiş ZƏFƏR paradı Azərbaycan xalqının tarixi yaddaşına əbədi yazılan bir hadisədir. Paradda Azərbaycan və türk əsgərlərinin çiyin-çiyinə Azadlıq meydanından keçməsi xalqlarımızın tarixində əbədi qalacaq qürurverici hadisədir. ZƏFƏR paradının misilsiz əhəmiyyətə malik olması səbəblərindən biri də Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə qardaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu paradda iştirak etməsi idi. ZƏFƏR paradı ictimaiyyət tərəfindən Qardaşlıq Zəfərinin rəmzi də adlandırılırdı. İki qardaş ölkənin LİDERLƏRİNİN paradı birgə qəbul etməsi və onların möhtəşəm çıxışları beynəlxalq ictimaiyyətə göndərilmiş çox ciddi xəbərdarlıq mesajları oldu. ZƏFƏRƏ həsr olunmuş parad Türkiyə-Azərbaycan qardaşlığının əbədi rəmzinə çevrildi. Türkiyə-Azərbaycan dostluğu 44 günlük Vətən müharibəsində özünü daha qabarıq şəkildə göstərdi. Bu birliyin nəticəsidir ki, ölkəmiz qısa müddətdə işğalçı ölkəni diz çökdürdü və möhtəşəm Qələbə qazanaraq, 30 illik işğala son qoyuldu. Bu sarsılmaz dostluğu möhtərəm Prezidentimiz İlham Əliyev 2020-ci il dekabrın 10-da Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradında belə ifadə edib: "Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır və sevindirir. Və bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda bütün dünyaya göstəririk." Rəcəb Tayyib Ərdoğanın "Türkiyə və Azərbaycan keçmişi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir" fikri də eyni amal uğrunda mübarizə aparan xalqlarımızın, beynəlxalq aləmdə bir yumruq kimi birləşən ölkələrimizin dostluğunun necə yüksək səviyyədə olduğunu bütün dünyaya nümayiş etdirmiş oldu.Qardaş ölkə artıq tarixdə qalan Qarabağ münaqişəsinin davam etdiyi illər ərzində həmişə Azərbaycana dəstək verirdi. Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Ümumilikdə tarixi Zəfərimiz bu qardaşlığın dünyaya təqdimatında öz sözünü dedi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil" çağırışı dünyaya mesaj oldu. Sonadək mənəvi və siyasi dəstəyini göstərən qardaş Türkiyə Zəfərimizi Azərbaycan ilə birgə yaşadı.

Tarix boyu Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri mövcud olub və iki ölkə həmişə bir-birinin sevincli, kədərli günlərində biri digərinin yanında olub. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir.

Döyüş meydanında, eləcə də diplomatik sferada qazandığı tarixi qələbə Azərbaycanın həm gücllü, həm də haqlı olduğunu bir daha isbat etdi.

**Nəzakət**

# Ulu Öndərin böyük siyasəti Azərbaycana qələbələr gətirdi

Bugünkü müasir Azərbaycan dövlətinin qurulması və inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin ən böyük xidmətlərindən biri ondan ibarət olmuşdur ki, hələ sovet dövründə Azərbaycan dövlətinin gələcək müstəqilliyinin qurulmasının əsaslarını yaratmışdır. Bu baxımdan, birmənalı şəkildə qeyd etmək olar ki, güclü və qüdrətli Azərbaycanın bünövrəsi Dahi Öndərimiz Heydər Əliyevin birinci dəfə Azərbaycanda hakimiyyətdə olduğu dövrdə qoyulub. O zamana qədər respublikamız bütün sahələrdə geridə qalan, inkişafı üçün heç bir perspektivi olmayan respublika idi. Məhz Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının rəhbəri seçildikdən sonra köklü dəyişikliklərə nail olundu, fundamental islahatlar nəticəsində əhalinin sosial vəziyyəti yaxşılaşdı, respublikamız sayılan və seçilən respublikaya çevrildi. Təkcə bir faktı vurğulamaq lazımdır ki, 1969-1982-ci illərdə milli gəlir 2,6, sənaye məhsulu 2,7, kənd təsərrüfatı 2,3 dəfə artdı, 249 yeni iri sənaye müəssisəsi yaradıldı. Ölkənin sənaye potensialı əvvəlki 50 ildəkini iki dəfə üstələdi. Həmin dövrdə 813 min yeni iş yeri açıldı, əhalinin güzəranı qat-qat yaxşılaşdı. Respublikamızın elmi-texniki potensialı dəfələrlə artdı, 265 elmlər doktoru, 3141 elmlər namizədi hazırlandı. Ötən əsrin 80-ci illərinin əvvəllərində ən nüfuzlu ali məktəblərə respublikamızdan göndərilən gənclərin sayı ildə 1000-1400 nəfər təşkil edirdi. Hər il 800-1000 azərbaycanlı gənc isə ittifaqın nüfuzlu hərbi məktəblərində hərb sənətinin sirlərinə yiyələnirdi. Ulu Öndər həmin dövrdə azərbaycanlıların keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsili üçün səylə çalışır, respublikamız üçün ayrılmış müsabiqədənkənar yerlərin sayının artırılmasını Moskvadan israrla tələb edir, əksər hallarda buna nail olurdu. 1970-ci ildə respublikadan kənara oxumağa göndərilən belə tələbələrin sayı əgər 60 nəfər idisə, 1975-ci ildə onların sayı 600 nəfərə, 1978-ci ildə 800-900 nəfərə çatmışdı. Beləliklə, SSRİ-nin müxtəlif ali təhsil müəssisələrinə göndərilənlərin sayı o zaman təxminən Azərbaycan Dövlət Universitetinə bir il ərzində qəbul olunanların sayına bərabər idi. Ümummilli Lider Heydər Əliyev çox sonralar 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə bununla bağlı xatırlamışdı: "Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən, sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaq. Vaxt gələcək ki, nəhayət, Azərbaycan müstəqil olacaq və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər".

## Yeni inkişafa, tərəqqiyə doğru

Təəssüflər olsun ki, Ulu Öndər Heydər Əliyevin qurub-yaratdıqlarını Onun Moskvaya ittifaq rəhbərliyinə getməsindən sonra dağıdıldı.1991-1993-cü illərdə Azərbaycanın vəziyyəti daha da ağırlaşdı. O dövrdə müstəqillik yollarında ilk addımlarını atan Azərbaycanda xaos və anarxiya hökm sürürdü. Zor gücünə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü ölkənin müstəqilliyini məhv olmaqdan, xalqı üzləşdiyi bəlalardan xilas etmək üçün düşünülmüş tədbirlər görmək iqtidarında deyildi. Siyasi baxımdan təcrübəsiz, dövlət idarəçiliyində heç bir təsəvvürə malik olmayan hakimiyyət ölkəni ağır bəlalara sürükləyirdi. Ölkədaxili vəziyyətin idarəolunmaz durumda olmasından istifadə edən erməni hərbi birləşmələri ardıcıl olaraq torpaqlarımızı işğal edirdilər. Bu kimi ağır problemlərin həllinə səy göstərməkdənsə, AXC-Müsavat iqtidarı narazı xalqın üzərinə güc strukturlarını göndərir, onları zor gücünə sakitləşdirməyə çalışırdı. 1993-cü ilin iyun hadisələri ölkədaxili ağır durumun kulminasiya nöqtəsi oldu. Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi. Ancaq aydın təfəkkürlü ziyalılar, böyük xalq kütlələri vətəndaş müharibəsindən qaçmağın və ölkəni düşdüyü böhrandan çıxarması yolunu Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsində gördülər. Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq üçün ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər". Nəticə etibarilə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın ozamanki gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Ulu Öndər Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır. Ulu Öndərin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı.

## "Nə qədər ki, Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam"

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti faciələrdən xilas ola bildi. Dahi Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, iqtisadi, hərbi, diplomatik nailiyyətlərin əldə olunması üçün geniş və əhatəli zəmin yaradıldı. Nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan həm də dünyanın aparıcı dövlətləri ilə iqtisadi, siyasi, diplomatik əlaqələr qurdu. Bu baxımdan, haqlı olaraq 15 iyun 1993-cü il tarixi Azərbaycan xalqının qızıl bir səhifəsi olaraq qeyd olunur. Ümummilli Lider Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, "mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və bütün gücümlə çalışacam ki, dövlətim müstəqil, əbədi olsun". "Nə qədər ki, Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam", - deyən Ulu Öndər Heydər Əliyev həyata keçirdiyi siyasət nəticəsində cəmiyyətin siyasi-hüquqi cəhətdən təkmilləşdirilməsinə, dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə, sosial-iqtisadi inkişafa nail olundu. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın bu gününə və gələcəyinə inamı artırdı. Bu müqavilədən sonra xeyli sayda neft-qaz sazişlərinin imzalanması, hazırda ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 120 milyard dollardan artıq olması da deyilənlərin təsdiqidir. Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndərin müdrik siyasəti sayəsində düşmənlərin aramsız təxribatlarına, pozuculuq əməllərinə baxmayaraq, Azərbaycandakı müxtəlif mədəniyyətlərin, fərqli dünyagörüşlərinin toqquşması baş verməди, ölkəmizdə tolerantlıq başlıca meyar olaraq qaldı. Ulu Öndər Heydər Əliyev iqtisadi inkişafı təmin etməklə yanaşı, digər sahələrdə mühüm addımlar atdı, qərarlar imzaladı. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan Respublikası ətrafında sıx birləşməsinə nail olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. 2001-ci ilin mayın 23-də imzalanan sərəncama əsasən, həmin ilin noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayı keçirilməsi diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycan dövlətinə və xalqına qələbələr bəxş etməkdədir. 2003-cü ildən Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı Dahi Öndərimiz Heydər Əliyev yolu ilə apararaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib. Bu gün ölkəmiz sürətlə inkişaf edən iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi, zəngin mədəniyyəti və ənənəvi tolerantlığı ilə bütün planetin diqqət mərkəzindədir. Fəaliyyətində xalqına güvənən, arxalanan dövlət başçısı xalqa xidmətdən böyük şərəf duyur: "Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı".

## Xalq hamılıqla inkişafın, tərəqqinin, uğurların davam etdirilməsi üçün Yenilməz Sərkərdə, Qalib Lider İlham Əliyevə səs verəcək

Bu gün Ulu Öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş inkişaf siyasəti ölkə Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qalib Sərkərdə, Prezident İlham Əliyevin apardığı siyasət ölkəmizin nüfuzunun beynəlxalq müstəvidə daha da möhkəmlənməsinə, insanların həyata şəraitinin daha da yaxşılaşmasına təkan olub. 2020-ci ilin sentyabrın 27-də başlayan və 44 gün çəkən Vətən Müharibəsi ilə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. Artıq Azərbaycan tam şəkildə suverenliyini bərpa edib, üçrəngli bayrağımız Xankəndidə, Xocalıda, Ağdərədə, Şuşada, Xocavənddə və digər işğaldan azad edilən ərazilərdə dalğalanır. Qədirbilən Azərbaycan xalqı Prezident İlham Əliyevin xidmətlərini yüksək qiymətləndirir və aparılan daxili və xarici siyasəti birmənalı şəkildə dəstəkləməklə, Prezidentimizə öz inam və etimadının yüksək olduğunu nümayiş etdirir. Bütün bunlardan sonra əminliklə demək olar ki, 7 fevral 2024-cü ildə keçiriləcək və Zəfər seçkisi kimi təqdim olunan növbədənkənar prezident seçkilərində xalq hamılıqla inkişafın, tərəqqinin, uğurların davam etdirilməsi üçün Yenilməz Sərkərdə, Qalib Lider İlham Əliyevə səs verəcək.

***İLHAM ƏLİYEV***







# Naxçıvan qovurmasının sorağı ilə...

*MİLLİ MƏTBƏXİMİZ*

İlin bu vədəsində Naxçıvan daha çox qonaqlı-qaralı olur. Çünki bu yerin sakinləri ilə yanaşı, buraya səfər edib qovurmanı dadan və dadı damaqlarında qalan insanlar da artıq Naxçıvan qovurmasının vurğunudurlar. Çünki qovurma zaman-zaman bu qonaqlar üçün açılan süfrələrə düzülən bir-birindən dadlı nemətlərdən biri olub. Onu dadanlar isə "bu nədir, necə hazırlanır" kimi sualları ard-arda yağdırıb, bu nemətin dadına heyran qaldıqlarını həmişə bildiriblər. Bu səbəbdən də hər payız qovurmanın sorağı ilə qədim diyara üz tutur, istər şəxsi ailə təsərrüfatlarında hazırlanan, istərsə də ət və ət məhsulları emalı müəssisələrində istehsal olunan qovurmadan alır və soyuq fəslin ruzisi kimi qışa saxlayırlar.

Artıq Naxçıvan qovurmasının Bakıda, Gəncədə satışları həyata keçirilir. Və doyulmaz dadı olan bu nemət hər kəsin zövqünü oxşayır. Odur ki, harada satılmasından asılı olmayaraq Naxçıvan qovurmasını sevənlər uzaq məsafə də olsa, qət edib qovurma sorağı ilə həmin ünvana gəlir və onu dadırlar. Necə ki, gözəl ölkəmizin hər bir regionuna məxsus məhsulların sorağı ilə məsafələr qət edirik, Naxçıvan qovurması üçün də eynilə. Gedirik, alırıq, süfrələrimizi bəzəyirik.

### Min bir nemətli Naxçıvan

Azərbaycanın özünəməxsus ənənələri, mədəniyyəti, mətbəxi, iqlimi olan bölgələrindən biri də qədim Naxçıvandır. Naxçıvanın sərt iqlim şəraiti ilə əlaqədar deyərlər ki, burada soyuqlar noyabrda başlar, martda bitər. Buna görə də naxçıvanlılar bu soyuqlu-sazaqlı altı aya, qarşıdan gələn qışın qarlı-boranlı günlərinə qara yaz başlanan vaxtdan düz qar yerə düşənədək hazırlıq görərlər. Zirzəmilər, əl damları dağların-düzlərin, həyət-baxçanın çeşid-çeşid məhsulları ilə doldurular ki, qışda ruzi bol olsun, el arasında deyildiyi kimi, əlini nəyə atsan, boşa çıxmasın.

Martda göy gurlayıb çölün per-pencərini yeməyə halallıq verəndən camaat başlayar həm istifadə etməyə, həm də qışa tədarükə. Şıppır, ələyəz, əvəlik hörülüb qurudular, hər biri bir dərdin dərmanı olan həmərsindən tutmuş zirincə, yemişanadək, dağ nanəsindən tutmuş yarpıza, kəklikotuna, çobanyastığınadək qurudulub ayrı-ayrı yığılar. Çaşır, sobu, bolu, baldırğanın turşusu tutular, turş, şirin alça, ərik qurudular, alma-heyva dərilib xüsusi anbarlara yığılar, armud, üzüm zirzəmilərin bu başından o başına çəkilən ipdən asılar, cəviz, badam, fındıq çırpılar, kisələrə doldurulub üstüstə toplanar. Həm həyətlərin, həm də çölündüzün bütün nemətlərinin mürəbbəsi, kompotu hazırlanar. Həftəbecər qoyular, bircə həftəyə süfrəyə gətirildimi, ardınca taxta çəlləklərdə qış turşusu tutular. Bundan sonra əriştə kəsilər, sərilər, qurudular, qovurulub, götürülər. Buğda yuyulub, kirkirədə çəkilib yarmaya çevrilər və parça torbalarda qış ruziləri yığılan yerə qoyular. Bu işlər noyabrın axırlarınadək - çox soyuq düşməmiş yekunlaşdırılar. Bundan sonra qadınlarımızın qalar bir, həm də ən böyük, çətin işi - qovurma qovurmaq.

### Həm qış ruzisi, həm hazır yemək

Qovurma Naxçıvan mətbəxinə məxsus nəfis yemək növüdür. Naxçıvanda bineyi-qədimdən hər bir nemət kimi, ət də qışa tədarük olunur. Ətin bu cür emal edilməsindən alınan yemək "Naxçıvan qovurması" kimi dillər əzbəridir. Bu həm qış ruzisi, həm də hazır yeməkdir. Qovurmadan qısa müddət ərzində 10-15 adda dadlı-tamlı yemək hazırlamaq olur. Baxmayaraq ki, qışa hazırlığın ən son işi qovurmadır, bu işin təməli əvvəlcədən qoyulur. Ya bir-iki il əvvəl, ya da fevralın axırı, martın əvvəlləri doğulan erkək quzuların ən gümrahı "qışın qovurmalığıdır", - deyə adlandırılır və o, xüsusi bəslənilir. Yayın sonlarınadək sürüyə ötürülən bu heyvanlar elə ki kərdi-külə pozuldu, kökəldilmək üçün həyətdə saxlanılır. Bu vaxt kəndlərə yolu düşənlər həyətlərdə 2-3 göz muncuğu toğlunun, quzunun payızın sazağından budaqda tab gətirə bilməyib ağacların altına tökülən yarpaqları, xəzəlin altında gizlənib qalmış yaşıl otları şirin-şirin yediklərini, quyruqlarını oynada-oynada ora-bura qaçdıqlarını görürlər. Baxır ilə, il sərt gələndə noyabrın axırları, yumşaq gələndə isə dekabrın ortaları, hələ bəzən sonları bu heyvanlar kəsilir, qışlıq ruzi hazırlanır.



### Qovurma hazırlamaq Naxçıvanda kiçik mərasim şəklində olur

Bu mərasimə evin ailə qurub ayrı yaşayan övladları, bir də ki ən yaxın qonşular dəvət olunurlar. Nənə-babalarımız deyərlər ki, qovurma etmək tək işi deyil, buna kömək lazımdır. Həm də bəzən bir heyvan yox, 2-si, 3-ü birdən qovurulur. Çünki bu qış ruzisi üçün övladlar da ata ocağına üz tuturlar. Həqiqətən də, belədir. Bunu dəfələrlə müşahidə etmişəm, ötən il isə Şahbuz rayonunun Nursu kəndində olarkən bir daha özlüyümdə bunu təsdiq etdim. Biz evə çatanda iki nəfər həyətdəki yaşlı tut ağacının budağından asılan qoçu soyurdu. Kimi ocağı qurur, kimi ortalığa qazan, ləyən, məcməyi, süzgəc gətirir, kimi də bu sazaqlı havada iş görənlərə bir stəkan çay vermək üçün samovara od salırdı.

Bir azdan soyulmuş heyvan elə ağacdaca hissələrə bölünüb, yerə sərilmiş örtüyün üstündəki ləyənlərə yığıldı ki, ət bir qədər soyusun. Sonra kəndlərimizdə bütün evlərdə olan ət doğramaq üçün ərik ağacı kötüyü, bir də ət baltası gətirildi və ət qovurmalıq ölçüdə doğrandı. Əti qovurmalıq doğramaq da hər adamın işi deyil, kəndlərimizdə bunu bilən adamlar var ki, onlar qovurma edilən zaman köməyə çağırılırlar. Bu arada bir kənarda heyvanın quyruğu doğranıb qazana yığılıb ocağa qoyuldu ki, əriməkdə olsun. Ət də yuyulub böyük qazanda ocağa qoyuldu. Elə ki ət qaynara düşdü, qonşudan köməyə çağırılan ağbirçək Səkinə xala dedi ki, hə, burada əlli-ayaqlı olmalısan ki, kəf qarışmasın, yoxsa ətin rəngi tündləşər, təngov bulanıq olar. Elə buradan da maraqlı söhbət başlandı. Səkinə xala qovurmanın keyfiyyətli, dadlı çıxması üçün üç şərtə əməl olunmasını bildirdi: kəf təmiz yığılmalı, ət qaynadılanda və qızardılanda vaxtında götürülməli, bir də duzu qaydasında olmalıdır. Marağımızı görən Səkinə xala ayağa qalxıb qolunu çırmaladı, dedi ki, gəlin mən göstərim, siz də görün. Onun ilk sözü bu oldu ki, qız-gəlin gərək yemək hazırlayanda, xüsusilə də xəmir yoğuranda, turşu qoyanda, qovurma edəndə önlük taxa, başına ləçək çala ki, hazırladığının içərisinə nə isə düşməsin. Təmiz-tarıq olmaq lazımdır ki, gördüyün işdən də gül iyi gəlsin. Bir də nənələrimiz deyərdilər ki, qış turşusunu qoyanda, əriştə kəsəndə, yarma hazırlayanda, qovurma edəndə heç vaxt ölümdən, xəstəlikdən danışmayın. Nəhs danışanda bu nemətlər də nəhs işlərə qismət olar.



O, tez-tez ətə baxırdı ki, birdən vaxtı ötər. "Əti bir az diri götürmək lazımdır ki, qızardanda əzilməsin", - deyən Səkinə xala bir azdan hazırdır, - deyib, əti kəfkirlə süzgəclərə yığdı ki, suyu süzsün. Qazanın içərisində 10-15 tikə ət qaldı. Mən soruşanda ki, bəs bunu nə üçün götürmürsünüz? O dedi: - Qızım, qovurma edilən həyətdə həmin gün başqa yemək hazırlanmaz. Ətin suyunu göstərərək, bu, təngovdur, buna Naxçıvanın bəzi rayonlarında işgənə, cığatay, şor suyu da deyirlər. Görürsən, nə gözəl ətri var? Bilirsən niyə? Birincisi, ona görə ətirlidir ki, bizim ellərin heyvanlarını kökəldəndə əlimizə keçəni onun qarşısına tökmərik. Çölün-çəmənin güllü-çiçəkli otunun-alafının ətridir bu. İkincisi, 1-2 kiloqram əti qaynadanda belə gözəl ətir gəlmir. Burada 30-35 kiloqram ət bir yerdə qaynadığı üçün belə gözəl ətir verir.

"Yaxşı, ət suyunu süzənədək biz naharımızı edək", - deyən Səkinə xala səsləndi ki, boşqabları gətirin. Qızlar məcməyilərdə içinə quru lavaş doğranmış 10-15 boşqab gətirdilər. Səkinə xala boşqabların hərəsinə bir tikə ət, 1-2 çömçə təngov qoydu, iy gedir, - deyib ən yaxın 2-3 qonşuya da pay yolladı. Yemək həyətdəki tut ağacının altında yerə açılmış böyük bir xalçanın üzərindəki süfrə başında əyləşənlərə paylandı. Süfrədə sulanmış lavaş, cızdıq (quyruq əridildikdə yerdə qalan hissə), şəhrə (heyvanın ayrı-ayrı yerlərindən götürülmüş yağlı hissələrdir. Bu da quyruqla bir yerdə əridilir, lakin cızdıqdan fərqli olaraq onun üstündə ət də olur), çaşır, baldırğan, bir də ki illik turşu deyilən kələm, pomidor, bibər, kökdən ibarət qarışıq turşu var idi.

Səkinə xalanın həyat yoldaşı Elman kişi əlini çörəyə uzadandan sonra hamı yeməyə başladı. Təngovun isladıb yumşaltdığı quru çörəyin sulanmış çörək və turşu ilə yeyilməsi qədər dadlı başqa heç nə ola bilməz. Düzdür, Naxçıvan mətbəxindən hansı yeməyi yesən, bu fikirdə olursan, lakin qovurmanın belə mərasim şəklində hazırlanması və təngovun kollektiv şəkildə yeyilməsi, həm də çörəyin çörəklə yeyilməsi mətbəximizin bu nümunəsini daha dadlı edir.



### O qadına qadın deyərlər ki...

Yeməkdən sonra süfrəyə ətirli samovar çayı gətirildi. Kişilərin işləri bitdiyinə görə kimi nərd, kimi də şahmat oynamağa başladı, qadınları isə Səkinə xala səslədi ki, ay qızlar, ocaq başına. Ocağın üstünə böyük bir teşt qoyuldu, quyruq yağı oraya boşaldıldı, yağ dağ olanda ət əlavə edildi, yaxşıca qızardıldı. O, aradabir ətdən götürüb boşqabın içərisinə qoyur, bıçaqla bölüb içinə baxır və deyirdi ki, yaxşı qızardılmasa, qovurma tez xarab olar. Sonra emallı vedrə gətirildi, birinci ətlər yığıldı, sonra üzərinə yağı əlavə olundu. Səkinə xala dedi ki, yağ əti basmalıdır, yəni qabdakı ətin üzərindən 1-2 santimetr yuxarıda qalmalıdır. Əsl qovurma odur ki, öz yağı özünü bassın. Sonra vedrənin qapağını qoydu, ağız şirinliyi ilə yeyin, xeyir işlərə qismət olsun, - deyib, kəndirlə onun ağzını bağladı.

Yenə də marağımızı görüb dedi ki, bəli, qovurma qış ruzisidir. Həm 15-20 gün qalmalıdır ki, bir özünü tutsun, həm də indidən ağzını qoydunsa bunun üstünə, bəs qışın şaxtasında nə yeyərsən? Qovurma qabının ağzı dekabr ayının sonlarında açılmalıdır. İndi yeməyə gör nələr var, amma qışda olmayacaq. Qışda hərdən bir-iki qaşıq götürüb sıyıq əriştəyə, yarma aşına, şep qovurmasına vurmalısan, yumurtanı onunla salmalısan ki, uşağın-böyüyün dizinə qüvvət, gözünə nur olsun. Qəflətən qonaq gələndə bir qovurma bozbaşı bişirib süfrəyə qoyaraq onu mətbəximizin zəngin nemətləri ilə tanış etməlisən. Bir də ki bu yerlərdə o qadına qadın deyirlər ki, yazın gözü açılana 1-2 bişirimlik qovurma saxlaya bilə ki, qazayağını, cacığı, çirişi, şepi onunla qovurub süfrəyə verə.

Səkinə xala maraqlı bir məsələyə də toxundu: "Bəzən qan təzyiqi olan adamlar və ya qoyun ətini sevməyənlər qovurmanı dana ətindən də edirlər. Amma ata-babadan qovurma qoyun ətindən hazırlanır. Dana ətindən edəndə onu mağazalarda satılan yağlarla və ya alınma quyruqla qovururlar. Bu qoyun qovurmasının dadını-ləzzətini vermir".

Bəli, qışa sayılı günlər qalan ərəfədə qovurmadan da danışdıq ki, bu neməti hazırlayıb süfrələrimizə düzməyə tələsək. Qoy, hər zaman süfrələrimiz açıq, bir-birindən gözəl nemətlərlə bol olsun.

**Mətanət Məmmədova**

# İrəvana sancılan bayraq



Postmüharibə dövrünü erməni cəmiyyətini olub-keçənləri saf-çürük etmək üçün imkan da adlandırmaq olar. Bu ölkə əvvəlki hərbi qələbələrdən sonra tam olaraq arxayınlıq içində yaşayırdı, Azərbaycana qarşı nifrətini bir az da dərinləşdirir, bizi zəif və heç nəyə qadir olmayan xalq hesab edirdi. Qədim tarixin bugünkü geosiyasətlə heç bir əlaqəsi olmasa da, Ermənistan öz tarixini və mədəniyyətini çox yüksək qiymətləndirirdi. İrəvan böyük dövlətlərlə münasibətlərinə və böyük dövlətlər daxilində diasporalarının təsirinə həddən artıq inanırdı. Ermənilər bu müddətdə yalnız istehlak edən bir toplum, kütlə kimi inkişaf edə bildilər ki, bu da avtomatik olaraq müdafiə şüurunun kəskin şəkildə zəifləməsinə gətirib çıxardı. Elin bunu tərif edəcək bir deyimi var, "ver yeyim, ört yatım, qoyma canım çıxmasın". Nəticədə, Ermənistan son dərəcə ağrılı bir zərbə aldı və əvvəlki zəfərləri təkrarlamaq perspektivi olmadan çətin bir duruma düşdü. İşğal etdiyi Azərbaycan ərazilərinin xeyli hissəsini itirdi.

## Ermənistanda vəziyyət daha pisdir

Məşhur və poetik ifadəni təkrarlasaq, deyə bilərik ki, "erməni qartalı döyüşdə huşunu itirməmiş, acınacaqlı, alçaldıcı bir şəkildə həlak oldu". Qarabağ uğrunda birinci müharibədə ermənilərin üstünlük əldə etdiyini xatırlayanda elə düşünmək olardı ki, bu gün bölgədə yaşananlar bir daha olmayacaq. Hətta üç il öncə baş verən hadisələrdən sonra da erməni cəmiyyəti elə təəssürat yaratmağa çalışırdı ki, sanki münaqişənin ümumi nəticəsi müvəqqətidir.1988-1994-cü illər müharibəsində əldə etdiyi müvəqqəti və kiçik üstünlükdən sonra Qarabağın hərbi-siyasi klanı nəinki Ermənistanın özünün siyasətinə böyük təsir göstərməyə başladı, hətta faktiki olaraq İrəvanda hakimiyyətə gəldi. Bir anlıq təsəvvür edin ki, Gürcüstandan ayrılandan sonra Cənubi Osetiya liderləri Vladiqafqazda yox, Moskvada hakimiyyətə gəldilər. Heç gülməli deyil. Amma Ermənistanda məhz belə oldu. İrəvanda getdikcə daha çox qıcıq yaratmağa başladılar. Qarabağ klanının hakimiyyətdən uzaqlaşdırılması bütövlükdə Qarabağa münasibətə təsir etdi. Bundan başqa, Ermənistanın demoqrafik, siyasi, iqtisadi, elmi, texnoloji və hərbi potensialı da pisdir. Ermənistanda diasporların potensialı da xeyli aşağı düşüb. Böyük dövlətlərdə erməni diasporuna hörmət azalıb.Bu gün Ermənistan ABŞ və Rusiya arasında seçim etməkdədir. Postsovet tarixinin başlanğıcında Ermənistan Rusiyaya arxalanıb. Və bu seçim uzun müddət ermənilərin yaşamını təmin edib. Moskva Ermənistan istiqamətində sırf mövcud hakimiyyətlə qarşılıqlı əlaqədən ibarət olan dəyişməz şablonla işləyirdi. Buna cavab olaraq ermənilər daim Rusiyaya sevgi və dostluq andı içirdilər. Qarabağda yaşayan ermənilər həmişə İrəvan ermənilərindən qat-qat rusiyapərəst olublar. Amma Ermənistan rəhbərlərinin basqısı altında Moskva ilə konfliktlər də yaşayıblar. İrəvanda Rusiya əleyhinə nümayişlər tədricən bir normaya çevrildi. Sonra faktiki çevriliş nəticəsində hakimiyyətə Nikol Paşinyan gəldi. Formal olaraq o, Tiflis və Kiyevdən fərqli olaraq Moskvadan tam uzaqlaşmadı. Amma əslində hər şey sonda olanlar kimi oldu.Erməni mediası son vaxtlar bir çox heyrətamiz şeylərdən xəbər verir. Paşinyanın bütün postsovet tarixində Ermənistanın ən rusiyapərəst lideri olduğundan da yazırlar. Qeyd edirlər ki, guya Rusiya Ermənistanı Rusiya-Belarus ittifaq dövlətinə qoşulmağa məcbur etmək üçün xüsusi olaraq Azərbaycanı Laçın dəhlizinin qarşısını almağa razı salıb. Bunu da belə əsaslandırırlar ki, Rusiya artıq sanksiyalar altında boğulur və inkişafı ləngiyir. Ona görə də nəyin bahasına olursa-olsun Türkiyəyə Zəngəzur dəhlizinin açılması üçün birgə fəaliyyət təklifi edir. Media onu da yazır ki, Ermənistan 2020-ci il müharibəsini rus silahları bə rus üsulları ilə apardığı üçün uduzdu. Ermənistan yeni silahlar üçün Rusiyaya külli miqdarda pul ödədi, amma Rusiya onlara bu silahları vermədi. Qərb KTMT-nin üzvü olduğu üçün Ermənistana müasir silahlar satmır. Və nəhayət, erməni mediası yazır ki, Rusiya indi Qarabağı və Ermənistanı Azərbaycan və Türkiyəyə satıb. Ermənistan rəsmiləri, son vaxtlar Paşinyan da daxil olmaqla, uzun müddətdir ki, Ermənistanın silah pulu ödədiyi, lakin Rusiyanın onu geri vermədiyi barədə danışır. Amma ödənilən məbləğlər, alınan silahların növləri və miqdarı və onların çatdırılma vaxtı barədə heç bir məlumat verilmir - heç bir konkretlik yoxdur. Ona görə də bu açıqlamalara inanmaq nədənsə çətindir.Eyni zamanda belə çıxır ki, İrəvanın Qərb silahlarına pulu var! Maraqlıdır ki, bu gün NATO Fransası KTMT-də mövcudluğundan əziyyət çəkmədən Ermənistana artıq silah satmağa başlayıb. 2020-ci il müharibəsinə gəlincə, erməni mediasının qənaəti budur ki, döyüşdə qələbəni bayraktarlar yox, müasir Rusiya silahları qazandırıb. Əgər belədirsə, onda İrəvan niyə eyni silahları KTMT-nin üzvü kimi Rusiyadan istəməyib. Bu böyük sualdır.Təbii ki, indi bir çox erməni hər şeydə Rusiyanı günahlandırır. Yəni, bəlkə də hamı deyil, amma Rusiyanı günahlandırmayanların səsi eşidilmir. Ermənistanda hesab edirlər ki, Rusiya sadəcə olaraq Ermənistanın özündən daha böyük Ermənistana çevrilməli idi. Bunun üçün "DQR"-i İrəvandan tez tanımalı, ən əsası isə erməni qoşunlarının əvəzinə rus qoşunlarını onun uğrunda ölməyə göndərməli idi. Bununla belə, qismən Rusiyanın özü də günahkardır ki, o, bütün tarixi boyu həmişə əks effekt verən ermənilərin "sədaqətini satın almaqla" məşğul olub. Nəticədə və bu günə kimi Ermənistanda ciddi şəkildə əmindirlər ki, Rusiya onları bir ölkə olaraq qaldığımız kimi qidalandırmaq və qorumaq məcburiyyətindədir. Amma eyni zamanda, təbii ki, öz daxili və xarici siyasətini tamamilə müstəqil aparacaqlar, axı müstəqildirlər.Ermənilərin heç də hamısı öz ölkələrinin məğlubiyyətində təkcə Rusiyanı günahlandırmır. Bəziləri hesab edir ki, Fransa və ABŞ da Ermənistanın özündən daha böyük erməni olmalı idilər - yəni onlar da İrəvandan əvvəl "dqr"i tanıyıb, sonra ermənilərin əvəzinə onun uğrunda ölməyə getməli idilər. "Müqəddəs" və "mübarək" Avropa İttifaqının müşahidə missiyasının nəinki sərhəddə baş verən hərəkətlərin qarşısını almaması, hətta ən azı şifahi qınaq belə ifadə etməməsi ermənilərin əhəmiyyətli bir hissəsi üçün xoşagəlməz sürpriz oldu. İndi də İsrail Ermənistanın düşmənləri sırasında özünə yer tapıb. Burada təəccüblü heç nə yoxdur, çünki bu gün ermənilər fələstinliləri və ən əsası İranı dəstəkləyir. Çünki Tehran İrəvanın az qala son ümidinə çevrilməkdədir. Bu isə Ermənistanın Avropaya gedən yolunda gözlənilməz dönüşün olacağına bir işarədir.

Nəhayət, ermənilər Nikol Paşinyanı satqın hesab edirlər və haqlı olduqlarını düşünürlər. Sadəcə, aydın deyil ki, xain niyə iki dəfə seçkiləri uddu, 2020-ci ilin biabırçı hərbi məğlubiyyətindən sonra da ikinci dəfə qalib gəldi? 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində Ermənistan SSRİ-nin "Rusiyanın imperiya zülmündən" xilas olmaq üçün xüsusilə fəal şəkildə mübarizə aparan respublikaları sırasında idi. Ermənistan özünü Cənubi Qaqazdakı qonşularından, eləcə də balikyanı ölkələrdən, ukraynalılardan və moldovalılardan daha "ağıllı" hesab edirdi, lakin istəklər başqa mənzərə yaradırdı.1991-ci ilin payızında Ermənistan seçicilərinin 99%-i müstəqilliyə səs verdi. "Böyük tarix"ə, güclü diaspora və Qərb nağıllarına inam çox güclü idi. Bundan əlavə, o dövrdə Qarabağ müharibəsində əldə edilən "qələbə" də öz töhfəsini verdi. Ölkə əhalisi 1992-ci ildəki 3,6 milyondan 2022-ci ildə 2,9 milyona qədər azaldı. Ermənistanda qalmaq istəyənlərin sayı getdikcə azalırdı. Ermənistan kiçik bir ölkə üçün formal müstəqilliyin hər kəsdən real asılılığı əhəmiyyətli dərəcədə artırdığını göstərən başqa bir nümunədir. "Böyük dövlətlər özlərini quldur, Ermənistan kimi kiçik ölkələr isə fahişə kimi aparır" ifadəsi onun həqiqət olmasına mane olmur. Halbuki böyük bir imperiyanın tərkibindəki Ermənistan nəinki zərrə qədər zülmə məruz qalmadı, əksinə ən imtiyazlı subyekt idi. Amma ermənilər kiçik bir ölkə olmaq qərarına gəldilər. Və onlar bu seçimin bütün təbii və qaçılmaz nəticələrini aldılar.İrəvan hələ də KTMT-dən çıxmaq və Rusiya Silahlı Qüvvələrinin 102-ci hərbi bazasını ölkədən çıxarmaq niyyətindədir. İndiki anti-Rusiya təbliğatı Ermənistanı Rusiya üçün ağır, mənasız bir yükə çevirir. Bundan sonra o, heç kim üçün tamamilə maraqlı olmayacaq. Yaxın vaxtlara qədər Xankəndində Azərbaycan bayraqlarından sonra İrəvan üzərində bir ölkənin - NATO üzvünün bayraqları görünəcək. Xeyr, Fransa və ya ABŞ deyil, Türkiyə. Bu, erməni seçiminin son və ədalətli nəticəsi olacaq.

***V.VƏLİYEV***



# Dövlətçiliyimizin, mədəniyyətimizin, adət-ənənələrimizin təbliği diqqət mərkəzindədir

**Dünyanın ən qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqının təqribən beş min illik dövlətçilik tarixi var. Dövlətçilik ənənələri ilə yanaşı, xalqımızın zəngin irsə, milli adət-ənənələrə, elm və mədəniyyətə sahib olduğu da tarixi qaynaqlarda öz təsdiqini tapmaqdadır. Sevindirici haldır ki, çox qədim dövlətçilik tarixinə, dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı özünə məxsus olan ənənələrinə, öz mədəniyyətinə, adətlərinə hər zaman sahib çıxıb və bu gün də bizə məxsus olan dəyərlər qorunub saxlanılır.**




Tarixi qaynaqlar, abidələr, kitabələr, aşkar olunan qədim yaşayış yerləri və bir sıra salnamələr təsdiq edir ki, eramızdan da əvvəlki minilliklərdə xalqımızın dövlətçilik ənənələri olub. Manna və Midiya dövlətlərinə mənsub olan ərazilərdə, Böyük Qafqaz dağlarının ətəklərində, Kiçik Qafqaz dağlarında, Qubadlı rayonunda Bərgüşad, Həkəri çayları vadilərində, Şirvan regionunda Mərəzə, Dərəkənd yaxınlığında, eləcə də cənub əyalətlərində, ümumiyyətlə, Azərbaycan ərazisində olan mağaralar, qədim yaşayış məskənləri, hələ bir neçə minilliklər əvvəl xalqımızın dövlətçilik ənələrinin olduğunu sübut edir. Eramızdan əvvəl üçüncü minillikdə Azərbaycanın cənubunda ilk tayfa birlikləri və erkən dövlət qurumlarının meydana gəldiyini təsdiq edən tarixi qaynaqlar var. Həmin qaynaqlara əsasən bəlli olur ki, eramızdan əvvəl üçüncü və ikinci minilliklərdə Urmiya gölünün qərbində və cənub-qərbində kuti, cənubunda lullubi, turukki tayfaları məskunlaşmışdılar. Bu barədə, yeni qədim Azərbaycan tayfaları haqqında ilk yazılı məlumatlara şumer dastanlarında və mixi yazılarında rast gəlinir. Həmin şumer dastanlarından və mixi yazılardan aydın olur ki, eramızdan əvvəl üçüncü minilliyin ikinci yarısında Azərbaycanın cənubunda Lullubi tayfa ittifaqı yaranmışdı və bu da düz beş min il bundan əvvələ təsadüf edir. Eramızdan əvvəl 2170-2150-ci illərdə, hökmdar Anubaninin dövründə Lullubilərin Akkad dövlətinə qarşı mübarizə apardıqları, Lullubi dövlət qurumunun daha da güclənməsi, onun uğurları eyni zamanda, "Anubaninin daş sütünü" ("Qələbə abidəsi") üzərindəki mixi yazılarda da həkk olunub və bütün bunlar xalqımızın dövlətçilik tarixinin beş min ilə yaxın olduğunu bir daha təsdiqləyir.

Xalqımızın qədim dövlətçilik ənənələrinin olduğunu təsdiq edən belə tarixi faklar və dövrümüzə qədər gəlib çıxan kitabələr yetərincədir və hələ sadalanacaq kifayət qədər tarixi faktlar da var. Etiraf etmək lazımdır ki, həmin tarixi faktların daha dərindən araşdırılması günümüzün ən aktual məsələlərindəndir. Hətta araşdırılarkən dövlətçiliyimizin daha qədim tarixə malik olduğu barədə ortaya çıxan məlumatların təbliğ edilməsi də olduqca vacibdir. Ələlxüsus da, köçəri hay tayfalarının Cənubi Qafqazda peyda olduqları gündən hazırki dövrə qədər məhz Azərbaycan xalqına məxsus olan maddi, mədəni irsin hamısını özününküləşdirmək, oğurlamaq niyyətində olması bu məsələnin, yəni dəyərlərimizin, adət-ənənələrimizin, mədəniyyətimizin qorunmasının, təbliğ edilməsinin nə dərəcədə vacib olduğunu ortaya qoyur. Xalqımızın tarixi kökləri, dövlətçilik ənənələri barədə yalan məlumatlar yaymağa çalışan, hər dəfə imkan tapdıqda bizə məxsus olan maddi və mədəni irsin, tarixi abidələrimizin məhv edilməsinə, tarixi faktların saxtalaşdırılmasına çalışan ermənilərin dayanmadan "canfəşanlıq" etdiyi bir zamanda bu məsələnin nə dərəcədə vacib, nə dərəcədə aktual olduğu artıq hər kəsə bəllidir.

İki yüz il bundan əvvəl Cənubi Qafqaza köçürülən, regionda cəmi iki əsrlik tarixi olan köçəri hay tayfalarının, bu gün erməni xalqı kimi tanınan toplumun hansı şəkildə ideal olduğu və özlərini ərazilərin sahibi kimi göstərmək istədikləri artıq bütün dünya ictimaiyyətinə əyandır. Azərbaycan ərazilərinə köçürülən ermənilər həmin ərazilərdə özlərinə dövlət qurmaları üçün Sovet hakimiyyətinin mövcud olduğu bir dövrdə münbit tarixi şəraitdən hiyləgərliklə istifadə etdikləri də sirr deyil. Məsələ burasındadır ki, həddindən artıq həyasız olmaları ilə tanınan haylar hər zaman Azərbaycanın digər ərazilərinə də sahib çıxmaq niyyətində olublar. Elə məhz Azərbaycan ərazisini, Qarabağı işğal faktı ilə zəbt edən ermənilər həmin əraziləri də özününküləşdirmək niyyətində idilər. Bu məqsədlə də ərazilərimizdə, Qarabağ ərazilərində tarixi abidələrə qarşı vəhşicəsinə davranaraq, onların yer üzündən silinməsi üçün əllərindən gələni ediblər. Əllərindən gələni ediblər ki, Azərbaycana, xalqımıza məxsus olan izləri tamamilə itirsinlər. Xalqımıza məxsus olan məscidlərin, tarixi abidələrin, hətta qəbir daşlarının belə ermənilər tərəfindən məhv edilməsi faktı ortadadır. Qarabağ ərazisində azərbaycanlılara məxsus yaşayış yerlərinin ermənilər tərəfindən darmadağın edilməsi, ərazilərimizi xarabalıqlara çevirmələri həmin əraziləri ziyarət edənlərin diqqətindən yayına bilməz və hətta foto və video materiallarda da öz əksini tapmaqdadır. Azərbaycan özünə məxsus olan əraziləri Ali Baş Komandanımızın, cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və rəhbərliyi ilə, ordumuzun rəşadəti və xalqımızın həmrəyliyi ilə erməni işğalından azad etdikdən sonra indi həmin yerlərdə sürətli şəkildə bərpa-quruculuq işləri aparır və həmin ərazilər, cənab Prezidentin dediyi kimi, getdikcə cənnətə çevrilməkdədir. Lakin ermənilərin həmin əraziləri darmadağın edərək məhv etmələri, çirkin niyyətləri qətiyyən yaddaşlardan silinməyəcək və bu məsələlər bizə, məhz özümüzə məxsus olan dəyərləri, adət-ənənələrimizi, mədəniyyətimizi, dövlətçiliyimizi daha çox qorumağa sövq edir.

Öz tarixi şəxsiyyətləri, alimləri, sənətkarları ilə tanınan Azərbaycan xalqını bəşəriyyət lap qədimdən tanıyır. Qədim dövrdə, orta əsrlərdə yaşayıb yaradan tarixçilərimiz, alimlərimiz, ədiblərimiz barədə kifayət qədər məlumatlar var. Elmin bütün sahələrinə xalqımızın tarix boyu maraq göstərməsi diqqətdən yayınan deyil və ölkəmizin ərazisində Şamaxı rəsədxanasının olması faktı onu deməyə əsas verir ki, hətta nücum elminə, münəccimliyə də xüsusi yer ayrılıb. Ədəbiyyatımız, ədiblərimiz barədə də dünya ictimaiyyəti yetərincə məlumatlıdır. Nizami Gəncəvi, Əfzələddin Xaqani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və başqa ədiblərimizi bütün dünya çox yaxşı tanıyır. Şeyx Nizaminin xəmsəsi bütün dünyada dillər əzbəridir. İmadəddin Nəsiminin fəlsəfi fikiləri, Məhəmməd Fizulinin platonik məhəbbəti tərənnüm edən əsərləri dünya miqyasında çox yaxşı tanınır. Musiqi sənətində dünyaya töhfələr verən Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, təsviri sənət, rəssamlıqda öz imzası ilə tanınan Səttar Bəhlulzadə, dünya elminə mislisiz yenilik gətirən və "qeyri-səlist məntiq" kimi bir kəşfi ilə yaddaşlara həkk olunan Lütfi Zadə bu xalqın, Azərbaycan xalqının övladlarıdır və belə şəxsiyyətlərin sayı sadalanandan dəfələrlə çoxdur. Belə bir mədəniyyətin, belə bir irsin öyrənilməsi, qorunub saxlanılması, hətta təbliğ edilməsi günümüzün ən aktual, ən vacib məsələlərindədir.

Xüsusilə diqqətə çatdırmaq yerinə düşərdi ki, mədəniyyətimiz, adət-ənənələrimiz və onların formalaşdırdığı milli dəyərlər sistemi ilə güclü dövlətçilik quruculuğu arasında sıx bir vəhdət var. Unutmaq lazım deyil ki, hər bir dövlətin gücü, ilk növbədə, mədəniyyətin, adət və ənənələrin cəmiyyəti əxlaqi, milli vətənpərvərlik baxımından düzgün istiqamətə yönəltməsindən, onları saf təməllər üzərində tərbiyə etməsindən asılıdır. Bu baxımdan bütün dövrlərdə mədəniyyət, adət və ənənələr hər bir dövlətin qüdrətli və uzunömürlü olmasında on minlərlə əsgərin görə bilmədiyi əvəzsiz bir iş görür. Bir sözlə, adət və ənənələr insan münasibətlərinin tənzimləyicisi və istiqamətvericisi funksiyasını yerinə yetirərək, öz liderı ətrafında möhkəm birləşən güclü və qüdrətli dövlətin meydana çıxmasında önəmli rol oynayır. Düz 30 ilə yaxın müddət ərzindən düşmən tapdağı altında qalan 20 faiz torpaqlarımızın işğaldan azad edilməsində biz bunun bir daha əyani şahidi olduq. Tək biz yox, bütün dünya şahidi oldu ki, cəmiyyəti əxlaqi, milli vətənəpərvərlik baxımından düzgün istiqamətə yönəldən adət və ənənələrimiz dövlətimizin gücünə güc qatdı, dövlətimizin qüdrətini daha da artırdı və həqiqətən də on minlərlə əsgərin gördüyü iş qədər bir iş gördü və xalqımızın "dəmir yumruq" şəklində birləşərək düşmənin başını ən qısa zamanda əzməsinə öz təhfəsini vermiş oldu.

Dövlətçilik ənənələrimiz, mədəniyyətimiz, xalqımızın adət-ənənələri, milli dəyərləri indi həmişəkindən daha çox diqqət mərkəzindədir. Ölkə rəhbərimiz, cənab Prezident İlham Əliyev xalqımızın milli adət-ənənələrinə, mədəniyyətinə xüsusi diqqət ayırır. Azərbaycan bu gün beynəlxalq miqyasda ən sürətlə inkişaf edən, ən böyük nailiyyətlər əldə edən ölkə olaraq dünyada söz sahibinə çevrilib, etibarlı tərəfdaş kimi də özünü təsdiq edib, sənəti, mədəniyyəti, incəsənəti ilə, ümumilikdə milli-mənəvi dəyərləri ilə heyrət doğura bilib. Bu dəyərlərin əsasında xalqın tarixi köklərini, tarixini, mədəniyyətini, qəhrəmanlığını, məişətini, sosial həyatını əks etdirən faktorlar dayanır. Belə bir tarixi irsin daşıyıcısı olan xalqın qürurla səhifələdiyi vərəqlər zənginləşməkdədir. Ölkə rəhbərinin, cənab Prezident İlham Əliyevin sərəncamı ilə bir sıra mədəniyyət ocaqlarının tikilib istifadəyə verilməsi, eləcə də bərpası, məsələn, Bakıda Beynəlxalq Muğam Mərkəzinin tikilməsi, Xalça Muzeyinin inşası, regionlarda yeni muzey və musiqi məktəblərinin yaradılması qədim və zəngin mədəni irsə, adət-ənənələrimizə, dəyərlərimizə olan diqqətin bariz nümunəsidir.

***İnam Hacıyev***

**Rusiya Beynəlxalq Münasibətlər Şurasının elmi direktoru, Rusiya-Azərbaycan Ekspert Şurasının mərkəzi şəxslərindən biri Andrey Kortunov "Moskva-Baku" portalına müsahibəsində Şuranın Cənubi Qafqazda mövcud post-konflikt vəziyyətini necə gördüyü barədə danışıb. Müsahibəni oxucularımza təqdim edirik.**

# "Regiondakı problemləri yalnız 3+3 formatında region ölkələri həll edə bilər"

## "Qərbin Bakının tərəfində deyil, İrəvanın tərəfində oynayaraq qərəzli, balanssız mövqe tutması onun vasitəçiliyinə imkan vermir"



*- Andrey Vadimoviç, bu yaxınlarda Moskvada keçirilən Rusiya-Azərbaycan Ekspert Şurasının 4-cü iclasının mövzusu "Cənubi Qafqazda münaqişədən sonrakı inkişaf kontekstində Rusiya ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyət" olub. Deyə bilərik ki, ekspert şurasının Rusiya tərəfi bununla da Azərbaycanla Ermənistan arasında münaqişənin bitdiyini bəyan edir...*

- Fikrimcə, münaqişənin tam başa çatması barədə obyektiv danışmaq yeqin ki, tezdir, çünki hələ də həll olunmamış məsələlər var və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasını, sərhədlərin delimitasiyası və demarkasiyasını gözləmək lazımdır. Sərhəd, hərbi əsirlərin son mübadiləsi, mina sahələrinin xəritələrinin köçürülməsi və bir çox başqa suallar açıq qalıb.

Amma ümumilikdə regionda yeni reallıqdan danışmaq olar. Biz həm Bakı, həm də İrəvanla münasibətlərdə bu yeni reallıqdan






çıxış etməliyik.

***- Kreml isə bu yeni reallığı müəyyən qədər bəyan etdi, erməni tərəfinin özünün bu yolla seçimini etdiyini bildirdi. Vladimir Putin böyük mətbuat konfransında bu barədə bir daha danışıb.***

- Əslində, burada bəzi qeyd-şərtlər lazımdır. "Erməni tərəfi" haqqında danışanda bu tərif təkcə indiki Ermənistan hakimiyyəti ilə məhdudlaşmır. Bu gün Ermənistanda mürəkkəb, çoxistiqamətli cəmiyyət mövcuddur ki, orada Zaqafqaziyadakı vəziyyətə fərqli baxışlar mövcuddur. Amma Ermənistanın indiki hakimiyyətinin hansı istiqamətdə hərəkət etdiyi tamamilə göz qabağındadır. Və bu, Moskvada qərar qəbul edənlərin nəzərə almalı olduğu reallıqdır.

***- Bir tərəfdən, münasibətlərin yekun tənzimlənməsindən sonra həqiqətən də Azərbaycan və Ermənistan qarşısında regionun inkişafı üçün yeni imkanlar açıldı. Digər tərəfdən, çoxlu ağırlaşdırıcı hallar yaranıb- bu, ilk növbədə, Qərbin Ermənistandan öz geosiyasi məqsədləri üçün istifadə etmək cəhdləri nəticəsində Rusiya ilə Ermənistan arasında münasibətlərin pisləşməsidir. Və Qarabağ məsələsindən istifadə etmək cəhdləri.***

- Təəssüf ki, həqiqətən də iddia etmək olar ki, Cənubi Qafqaz regionunda vəziyyət bir çox cəhətdən daha geniş geosiyasi üfüqdə baş verən proseslərin girovundadır. Rusiya ilə Qərb arasındakı münaqişə çox vaxt Transqafqazın təhlükəsizliyi və inkişafı məsələlərinə yönəldilir. Ümid etmək istərdim ki, bu müddət uzanmayacaq və nəticədə hələ də razılığa gəlmək mümkün olacaq.

Rusiya bu vəziyyətdə 3+3 formatına (3 Zaqafqaziya dövləti - Azərbaycan, Ermənistan, Gürcüstan və onların 3 böyük qonşusu Rusiya, Türkiyə, İran) diqqətini davam etdirəcək, bu da Cənubi Qafqazdakı məsələlərin region ölkələri ilə birgə həlli deməkdir. Kənar oyunçular müəyyən rol oynaya bilər, lakin istənilən halda bu rol həlledici olmayacaq.

***- Amma Gürcüstan hələ də bu formatda qarşılıqlı fəaliyyətdən imtina edir...***

- Bu da qarşılıqlı əlaqəni çətinləşdirir. Gürcüstansız bu format bir çox cəhətdən məhdud dəyərə malik olacaq. Lakin bu məsələ ilə bağlı Gürcüstanla əlaqə saxlamaq lazımdır, məsələnin həlli formatda iştirakçıların fəallığından çox asılıdır. Ümid etmək istərdim ki, Tiflis sonda belə bir regiondaxili dialoqun fəal iştirakçısına çevriləcək.

***- Biz görürük ki, son vaxtlar Qərbdə Cənubi Qafqazdakı vəziyyətlə bağlı Rusiya və Azərbaycanı tez-tez tənqid edirlər...***

- ABŞ-da müəyyən bir ideologiya var ki, müasir dünya liberal demokratiya ilə qeyri-liberal avtokratiyaların qarşıdurmasıdır. Biz bu hekayəni Cozef Bayden administrasiyasının ritorikasında görürük. Guya ki, həm Moskva, həm də Bakı öz məntiqi ilə tarixin yanlış tərəfindədir. Ermənistan isə bu gün düzgün yoldadır.

Amma eyni zamanda, Qərbin Azərbaycanla bağlı tənqidlərini də ciddi qəbul etmək olmaz. Çünki bütün dediklərimə baxmayaraq, Qərbin, xüsusilə də Avropa İttifaqının Azərbaycanla enerji əməkdaşlığını inkişaf etdirmək marağı hələ də var. Və bu maraq, müəyyən mənada Qərbi Bakı haqqında indi Vaşinqtondan eşitdiyimiz, "ağ-qara" kimi görünən və çox sərt ifadələri müəyyən mənada düzəltməyə məcbur edir.

Bir faktı da nəzərə almalıyıq ki, bir çox Qərb ölkələrində, o cümlədən ABŞ və bəzi Aİ ölkələrində erməni diasporunun nüfuzu var. Onların regionda baş verən hadisələrə öz baxışları var. Onların hansı mövqe tutduqlarını təxmin etmək asandır. Və siyasətçilər də bunu nəzərə almağa məcburdurlar. ABŞ və ya Fransa qanunverici orqanında zaman-zaman ortaya çıxan təşəbbüsləri müşahidə etdikdə bunu görürük.

***- Sizcə, Cənubi Qafqazda sabitliyi pozmaq cəhdləri olanda Rusiya və Azərbaycan situasiyanın öhdəsindən necə gələcək?***

- Məncə, Zaqafqaziya bu gün xarici oyunçular üçün açıq regiondur. Qərb də orada olacaq. Amma buna baxmayaraq, onu da başa düşməliyik ki, Ermənistan və Gürcüstandan danışsaq, Qərbin bu ölkələrə verə biləcəyi ciddi təklifləri yoxdur. Onlar Qərbin diqqət mərkəzində deyil, daha çox periferiyadadırlar. Ona görə də regionda Qərb üçün çox böyük, əhəmiyyətli layihələrin həyata keçirilə biləcəyini gözləyən siyasətçilər, məncə, böyük ehtimalla məyus olacaqlar.

İrəvan üçün Qərbdən hansısa maliyyələşmə, bir növ siyasi, maliyyə dəstəyi davam edəcək. Xüsusən də erməni diasporundan pul axını davam edəcək.

Amma ciddi geosiyasi dəyişikliklərdən, Ermənistanın KTMT-dən çıxması, Avropa Birliyinə üzv olması və ya NATO-ya üzv olmaq üçün namizəd statusu alması ehtimalından danışırıqsa, bu, yaxın gələcəkdə baş verməyəcək. Mənə elə gəlir ki, həm Paşinyan, həm də ümumilikdə erməni siyasətçiləri real vəziyyətdən çıxış etməlidirlər. Amma reallıq ondan ibarətdir ki, Qərb üçün Cənubi Qafqazın bütün əhəmiyyətinə baxmayaraq, bu region cari xarici siyasətin və ya xarici iqtisadi prioritetlərin mərkəzi deyil.

***- Ermənistanın Qərblə əməkdaşlığa doğru artan addımları Cənubi Qafqazda təhlükəsizliyə və sülhə təhdiddirmi?***

- Nəzəri olaraq- əlbəttə! İrəvanın siyasətinin ümumi vektorunda dəyişikliklər əlavə qeyri-sabitlik amilləri və regionun təhlükəsizliyi üçün yeni çağırışlar yaradır. Amma hesab edirəm ki, Brüsseldən və ayrı-ayrı Qərb ölkələrindən eşitdiyimiz ritorik deklarativ bəyanatlara qarşı sakit olmalıyıq. Aydındır ki, bir çox Qərb siyasətçiləri məsələni elə təqdim etmək istərdilər ki, Ermənistan indi öz tarixi seçimini edir, lakin tarix göstərir ki, praktikada belə bir seçim etmək o qədər də asan deyil. Ermənistan isə Avropa İttifaqı məkanında deyil, Avrasiya məkanında çox ciddi marağı saxlayır.



Fikrimcə, Ermənistan yaxın gələcəkdə KTMT-dən çıxmayacaq, baxmayaraq ki, təbii ki, strukturdan narazılığını bəyan etməkdə davam edəcək və biz yenə də çoxlu tənqidlər eşidəcəyik. Çıxarma Ermənistanın hazırkı rəhbərliyinin hazır olmadığı Moskva ilə İrəvan arasında münasibətlərin əsaslarına çox ciddi yenidən baxılmasına gətirib çıxaracaq.

***- İrəvan rəsmi Bakı ilə sülh sazişi imzalamağa hazır olduğunu bəyan edir, lakin buna eyham vurur ki, yalnız Qərbin zəmanəti ilə.***

- Burada sual ondan ibarətdir ki, son nəticədə Ermənistanın təhlükəsizliyinə hansı qüvvə zəmanət verəcək və Qərb bu təhlükəsizliyi təmin etməyə hazırdırmı? Mən buna çox da əmin deyiləm, onların nə resursu, nə də imkanı var. Bəli, Avropa İttifaqının sülhməramlı kimi çıxış etməsi yeqin ki, çox cəlbedici olardı. Amma bu, regionda təhlükəsizliyə kimin cavabdeh ola biləcəyi sualını aradan qaldırmır. Yalnız Aİ-nin hərbi-siyasi təşkilat olmadığını əsas götürsək, mən burada Avropa İttifaqı üçün real ciddi rol görmürəm.

Cənubi Qafqaz regionunda təhlükəsizlik xarici oyunçular deyil, ilk növbədə regional oyunçular arasında qarşılıqlı fəaliyyətin nəticəsi olmalıdır. Ona görə də çətin ki, Bakı ilə İrəvan arasında ikitərəfli dialoqu burada kimsə əvəz edə bilsin.

***- Sizcə, Azərbaycanın Qərb vasitəçiliyinə münasibəti necədir?***

- Azərbaycanda Qərbin Bakının tərəfində deyil, daha çox İrəvanın tərəfində oynayaraq qərəzli, balanssız mövqe tutması ilə bağlı qorxular var. Siyasət mümkün olanın sənətidir. Hesab edirəm ki, Azərbaycan və Ermənistan son nəticədə kompromis yanaşma nümayiş etdirməlidir. Və nəticə verərsə, çox gözəl olacaq.

***Tərcümə - Elçin Bayramlı***

# Həmrəyliyin 50 milyon nümunəsi

## Vətən Müharibəsi həmrəy və yekdil azərbaycanlıların birgə qələbəsi idi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti çərçivəsində hazırlanıb*









Dilimizdəki ”həmrəy” sözü ”həmfikir”, ”yekdil” mənasını verir. Bu sözün özülündə birlik anlayışı dayanıb. Birliyin sütunları isə yekdil qüvvədən var olur. Bu gün dünyanın müxtəlif ölkələrində yaşayan, təqribi sayı 50 milyon nəfər olan azərbaycanlının 10 milyondan çoxu mühacirətdə yaşayır. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin onları birləşdirən bir amal var - bütöv və təhlükəsiz Azərbaycan. Biz bu bütövlüyü 44 günlük müharibədə tək ürək, tək bilək olan dünya azərbaycanlılarının timsalında bir daha gördük.

### Naxçıvandan bütün dünya azərbaycanlılarına həmrəylik çağırışı

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda SSRİ-İran sərhədlərinin dağılması zamanı qoyuldu. Noyabr ayının 5-də qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurəti irəli sürüldü. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Bu barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 6 bənddən ibarət qərar qəbul etdi.

Qərarda qeyd olunurdu ki, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü elan olunsun və hər il bayram edilsin. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin. 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Ali Sovetinə təklif verilsin. Naxçıvan Muxtar Respublikasının şəhər və rayon məclislərinə tapşırılsın ki, bayram günləri demokratik təşkilatların iştirakı ilə təntənəli mərasimlər hazırlayıb həyata keçirsinlər. Akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan şöbəsinə, Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan vilayət şöbəsinə, Xalq Təhsili Nazirliyinə tapşırılsın ki, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Gününə həsr olunmuş elmi konfrans keçirsinlər. Sərhəd çəpərlərinin bərpa edilməsi qanunsuz hesab edilsin və istehkam qurğularının ləğv edilməsini təmin etmək üçün deputat komissiyası yaradılsın.

### 32 ildir ki, 31 Dekabr bizi birləşdirir

32 ildir ki, qeyd etdiyimiz 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü hazırda dünyanın 70-dən çox ölkəsində yaşayan azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün xüsusi əhəmiyyətə malik tarixdir. Bu tarixin yaradılması ilə Azərbaycan xalqının birliyi, bütövlüyü uğrunda gördüyü çoxsaylı işlərdən daha biri ilə ömürlük tariximizə həkk olan Ümummilli Lider qürbətdə yaşayan soydaşlarımıza müraciətlərindən birində belə deyirdi:

”Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilib. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir”.

### 5 qitədə həmrəy olmaq

Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımız Amerika qitəsinin Şimal, Mərkəzi və Cənub hissəsində daha çox məskunlaşıblar. Onların sayı Birləşmiş Ştatlarda 1 milyona, Argentinada 12 minə, Braziliyada 75 minə, Kanadada 170 minə, Meksikada isə 27 minə çatır. Amerika qitəsi ölkələrində Honduras, Qvatemala, Peru və digərlərində də soydaşlarımız yaşayırlar. Məlumatlara görə, Amerika qitəsində məskunlaşan azərbaycanlıların əksəriyyəti zaman-zaman İrandan miqrasiya edən soydaşlarımızdır. 1970-ci ildən etibarən Türkiyədən, 1991-ci ildən isə Azərbaycandan bir qisim soydaşımızın okeanın o tayına köçü baş tutub.

Statistik göstəricilərə görə, azərbaycanlıların sayı Türkiyədə və Rusiyada daha çoxdur, bu say milyonlarla ölçülür. Belarus, Ukrayna, Almaniya və Böyük Britaniyada yüzminlərlə soyadşımız məskunlaşıb, Norveç, İsveç, Macarıstan, Danimarka, İtaliya və Fransada da on minlərlə azərbaycanlı yaşayır. Azərbaycanlıların məskunlaşdığı ölkələrdən olan Avstriya, Polşa, Finlandiya, İspaniya, Albaniya, Portuqaliyada on mindən çox soydaşımız yaşayır.

### Vətən müharibəsində dünya azərbaycanlılarının həmrəyliyi

II Qarabağ Müharibəsi zamanı dünyanın hər tərəfindən Azərbaycan sədası eşidildi. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar orduya dəstək məqsədi ilə yardım topladılar, onlar dövlətinin, ordusunun yanında olduqlarını hiss etdirdilər. Ən ali vəzifəli azərbaycanlıdan ən az gəlirli azərbaycanlıyadək hər kəs bu yardıma öz payını əlavə etdi. Topladıqları yardımı Azərbaycana göndərənlər orduya dəstək məqsədi ilə xərclənməsini istədilər.

O vəsaitə Azərbaycan əsgərinin ehtiyacı olmasa, hər bir ehtiyacları ödənsə də, dövlət sadə vətəndaşların bu dəstəyini qəbul etdi. Bu, ölkəsindən, vətənindən uzaqda yaşayan azərbaycanlıların vəfa borcu idi. Əsgər payı bağlamalarda nələr yox idi ki? Təmizlik vasitələrindən geyimə, qidadan suyadək hər ehtiyac nəzərə alınmışdı. Xaricdəki azərbaycanlıların topladıqları vəsaitə alınan yardımlar gecə-gündüz yol kənarlarında dayanıb orduya gedən hərbi avtomobilləri yola salan gənclər tərəfindən hərbi maşınların yük yerinə yığıldı. Sərhədyanı bölgələrdə yerləşən rayonların, kəndlərin əhalisi cəbhəyə qida, qarpız-qovun daşıdılar. Əsgər, arxasında 50 milyonluq Azərbaycanın varlığını, həmrəyliyini hiss etdi, daha əzmlə, daha cəsarətlə döyüşdü.

Dünya azərbaycanlılarının həmin günlərdə hiss etdiklərini Prezident İlham Əliyev belə dilə gətirir: ”Əminəm ki, indi dünya azərbaycanlıları bu bayramı ruh yüksəkliyi ilə qeyd edirlər. Çünki mən bilirəm ki, bu işğal dövrü və işğalla bağlı olan məsələlər xaricdə yaşayan azərbaycanlılara da böyük əzab-əziyyət verirdi. Çünki ermənilərlə müxtəlif ölkələrdə ünsiyyətdə olarkən onların təkəbbürlü baxışları əminəm ki, dünya azərbaycanlılarını incidirdi. İndi isə vəziyyət tam fərqlidir. Biz heç vaxt təkəbbürlü olmamışıq, amma hər zaman öz gücümüzü hiss etmişik. Bu gün əminəm ki, dünya azərbaycanlıları yaşadıqları bütün ölkələrdə başı dik, alnıaçıq, üzüağ gəzirlər və öz tarixi vətəni olan Azərbaycanla haqlı olaraq fəxr edirlər”.

Ötən il, 22 aprel 2022-ci ildə Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı işə başlayanda da Prezident İlham Əliyev ilk qurultayı da xatırlamışdı. O, 2001-ci ildə, Bakıda keçirilən Dünya azərbaycanlılarının I Qurultayı barədə xatirələrini də bölüşmüşdü. O, Ümummilli Liderin vəsiyyətini reallaşdırdığı üçün, dünya azərbaycanlılarını Bütöv Azərbaycanın mədəniyyət beşiyi Şuşaya toplaya bildiyi üçün qürur duyduğunu dilə gətirmişdi.

*Lalə Mehralı*

SON SƏHİFƏ
SƏS
16 dekabr
2023-cü il

# Ailədaxili iqtisadi zorakılığa qarşı hansı tədbirlər görülməlidir?

*MÜNASİBƏT*





"İqtisadi zorakılıq, müəyyən bir hərəkəti etməyə məcbur və ya təzyiq etmə formalarından biridir. Bu halda bir tərəfin digər tərəfə iqtisadi güc balanssızlığından istifadə edərək istəklərini həyata keçirməsi də başa düşülə bilər". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.

Onun sözlərinə görə, ailədaxili iqtisadi zorakılıq isə bir şəxs və ya fərdlər tərəfindən öz səlahiyyətlərindən sui-istifadə edərək ailənin digər üzvlərinə qarşı iqtisadi təzyiqlər tətbiq etməsidir: "Bu halda şəxs ailə üzvlərini onların razılığı olmadan iqtisadi cəhətdən istismar edə və ya idarə edə bilər. Məsələn, valideynin övladlarına təzyiq göstərərək onları istəmədiyi bir işə məcbur etməsi və ya onlardan qazandığı pulu götürməsi iqtisadi məcburiyyət nümunələri ola bilər. Eynilə, ailə üzvlərinin maddi imkanlarından sui-istifadə edərək başqalarını manipulyasiya etməsi və ya onları iqtisadi cəhətdən idarə etməyə çalışması iqtisadi məcburiyyət nümunəsidir.

Bu cür zorakılığın tez-tez emosional və psixoloji təsirləri olur və qurbanların özlərini müdafiə etməsi çətin ola bilər, çünki ailə münasibətlərindəki emosional bağlar çox vaxt belə halların üzə çıxmasına mane ola bilər". Turan Abdullazadə sözlərinə belə davam edib: "Ər-arvad arasında iqtisadi zorakılıq, onlardan birinin digərinə qarşı maddi təzyiq və ya iqtisadi zorakılıq göstərməsidir. Bu zaman həyat yoldaşlarından biri digərinin maliyyə imkanlarına nəzarət etməyə cəhd edə bilər, onları istəmədiyi şəkildə xərcləməyə məcbur edə və ya maddi müstəqilliyini əlindən ala bilər.

Məsələn, həyat yoldaşlarından biri digər həyat yoldaşını maddi hədə-qorxu ilə təhdid edərək ailə xərcləri ilə bağlı digər həyat yoldaşına təzyiq göstərə bilər və ya qarşı tərəfin gəlirini ələ keçirərək digər həyat yoldaşının iqtisadi azadlığını məhdudlaşdıra bilər.

İqtisadi zorakılığın bu növü münasibətlərdə güc balansının pozulmasına əsaslanır və qurbanı olan tərəfdaşın özünü qorumaq və vəziyyətdən çıxması çox vaxt çətin olur. İqtisadi zorakılıq psixoloji və emosional təsirləri ilə yanaşı, münasibətlərdəki inam və tarazlığa da ciddi təsir göstərə bilər. "Məişət zorakılığının qarşısının alınması haqqında" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA əsasən, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi - bu Qanunun şamil edildiyi şəxslərin birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətləri başa düşülür.

İnzibati Xətalar Məcəlləsinin 158.1-ci maddəsinə əsasən, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə- yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir. Bu maddədə göstərilən əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir. Məişət zorakılığına məruz qalan zərər çəkmiş şəxsə qısamüddətli və ya uzunmüddətli mühafizə orderi verilə bilər".

***Ayşən Vəli***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Messinin köynəkləri 7,8 milyon dollara satılıb



"İnter Mayami"nin hücumçusu Lionel Messinin 2022-ci ildə DÇ-də qalib gəldiyi oyunlarda geyindiyi köynəklərin dəsti hərracda 7,8 milyon ABŞ dollarına satılıb. SİA xəbər verir ki, məlumata görə, satış böyük "idman" lotlarının alveri ilə məşğul olan Nyu-Yorkun "Sotheby's" hərracı tərəfindən təşkil edilib. Qeyd edək ki, NBA əfsanəsi Maykl Cordanın forması orada 10,1 milyon dollara satılıb.

# "Kitab psixoloji bir seansı əvəz edə bilməz"

*PSİXOLOQ FİKRİ*



"Kitab hər bir dövr üçün ən vacib ünsürlərdən biri hesab olunur. Xüsusilə, müasir insanın həyatını kitabsız, mütaliə olmadan təsəvvür etmək çətindir. Düşünürəm ki, həyatımıza, psixologiyamıza pis, neqativ təsir edəcək kitab yoxdur". Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevrorequlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, Uzman- Klinik psixoloq Narınc Rüstəmova deyib. Onun sözlərinə görə, kitab oxumaq vərdişi insanda kiçik yaşlardan formalaşdırılmalıdır: "Elə bu mövzu ilə bağlı hər zaman çoxlu suallar alırıq. Valideynlər "Övladımda kitab oxumaq vərdişini necə formalaşdıra bilərəm?" tipli suallar ünvanlayırlar.

Vurğulamaq lazımdır ki, burada ən gözəl nümunə məhz valideynin özüdür. Uşaq günün müəyyən hissəsini kitab oxmaqla dəyərləndirən valideynini gördükdə istər-istəməz o da valideyni ilə birgə kitab oxumağa başlayacaq. Məlumdur ki, kitab oxumaq həm dəzehni gimnastika hesab olunur. Belə ki, kitab oxumaq insanların yaddaşlarının möhkəmlənməsinə və zehni inkişafına müsbət təsir edir. Valideynlərin evdə kiçik bir kitabxana, başqa sözlə desək kiçik bir kitab guşəsi yaratması uşaqların kitaba olan marağını daha da artıracaqdır. Hətta qeyd edə bilərəm ki, psixoloqlar da qrup terapiyası zamanı uşaqlara kitab oxumağı, mütaliəni aşılayır. Məsələn: qrup terapiyasında iştirak edən uşaqların yaşına, dünyagörüşünə, psixoloji vəziyyətlərinə və s. uyğun kitab psixoloq tərəfindən seçilir və oxuyaraq müzakirə edilir. Bu da uşağın kitaba qarşı məhəbbətini artıran vasitələrdən biridir. Qeyd etdiyim kimi, kitabın düzgün seçilməsi də çox önəmlidir. Burada əsas hissələrdən biri kitabın uşağın yaşına və anlama səviyyəsinə uyğun olmasıdır. Ancaq bunu da bildirməliyəm ki, təbii ki, bir kitab psixoloji bir seansı əvəz edə bilməz. Çünki psixoloq həmin an problemi görür və müxtəlif psixoloji metodlarla o problemin kökünə enib onu korreksiya etməyə başlayır. Kitab isə təəssüf ki, bəzi insanlarda problemi göstərən pəncərə rolunu oynayır. Psixoloji dəstək, psixoloji terapiya görmədən bir çox insan o problemi aşa və onu özündə korreksiya edə bilmir. Bu ancaq professional dəstək və peşəkar psixoloq yardımı ilə olur".

***Səbinə Hüseynli***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**